5 iyul 2023 №49 (2018)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Milli Kitabxananın 100 illiyi qeyd olunacaq



2023-cü ildə Azərbaycan Milli Kitabxanasının fəaliyyətə başlamasının 100 illiyi tamam olur. Prezident İlham Əliyev iyunun 24-də Azərbaycan Milli Kitabxanasının 100 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncamda qeyd olunur ki, yarandığı vaxtdan etibarən şərəfli bir yol keçmiş Milli Kitabxana xalqımızın mədəniyyət xəzinəsinə çevrilib. Sərəncamda Mədəniyyət Nazirliyinə Milli Kitabxananın 100 illiyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirmək tapşırılıb.

səh. 2

## Yeni regional mədəniyyət idarələrinin strukturu təsdiqlənib

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin strukturuna daxil olan regional mədəniyyət idarələri yenidən təşkil edilib.

Bununla əlaqədar Prezident İlham Əliyev tərəfindən 23 fevral 2023-cü il tarixində sərəncam imzalanıb.

Sərəncama əsasən, Azərbaycan Respublikasının iqtisadi rayonlarının yeni bölgüsünə (2021) uyğun olaraq, nazirliyin Sumqayıt, Xaçmaz, İsmayıllı, Şəki, Kürdəmir, Ağstafa, Şəmkir, Gəncə, Bərdə, Ağcabədi, Ağdaş, Sabirabad, Biləsuvar, Masallı və Lənkəran regional mədəniyyət idarələri əsasında Abşeron-Xızı, Dağlıq Şirvan, Gəncə-Daşkəsən, Qarabağ, Qazax-Tovuz, Quba-Xaçmaz, Lənkəran-Astara, Mərkəzi Aran, Mil-Muğan, Şəki-Zaqatala, Şərqi Zəngəzur və Şirvan-Salyan regional mədəniyyət idarələri yaradılıb.

Sərəncama uyğun olaraq, Mədəniyyət Nazirliyi tərəfindən yeni regional mədəniyyət idarələrinin strukturu və əsasnamələri təsdiqlənib.

səh. 2

## Üçüncü "Yüksəliş" – müsabiqənin yarımfinal mərhələsi keçirilib

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2019-cu ildə təsis olunan "Yüksəliş" müsabiqəsi bu il üçüncü dəfə keçirilir. İlk müsabiqə 2020-ci ilə nəzərdə tutulsa da, pandemiya səbəbindən mərhələlər uzanaraq 2021-ci ilin iyulunda yekunlaşdı. İkinci müsabiqə 2022-ci ildə gerçəkləşdi.

Sayca üçüncü "Yüksəliş" müsabiqəsinin yarımfinal mərhələsi 1-2 iyul tarixlərində Bakı Ekspo Mərkəzində keçirilib.

səh. 3

## Çeçenistan universitetində Azərbaycan mədəniyyəti mərkəzi

Azərbaycan Dillər Universitetinin (ADU) təşəbbüsü ilə dünyanın müxtəlif ali tədris ocaqlarında Azərbaycan mədəniyyəti mərkəzləri yaradılır. Növbəti belə mərkəz Rusiya Federasiyası Çeçenistan Respublikasının paytaxtı Qroznıda, Çeçenistan Dövlət Pedaqoji Universitetində təşkil edilib.

səh. 6

## Vladivostok teatrı Bakıda qastrol səfərindədir




Xəbər verdiyimiz kimi, Rusiyanın Vladivostok şəhərində fəaliyyət göstərən Maksim Qorki adına Primorsk Akademik Vilayət Dram Teatrı (bədii rəhbər Xalq artisti, "Qızıl maska" mükafatı laureatı Yefim Zvenyatski) Bakıya qastrol səfərinə gəlib.

1-9 iyul tarixlərini əhatə edən səfər "Heydər Əliyev İli" çərçivəsində və Azərbaycan peşəkar milli teatrının 150 illiyi münasibətilə Rusiya Federasiyası Primorsk Vilayəti Hökuməti və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşır.

səh. 5

# Musiqinin "İpək Yolu" yenə Şəkidən keçir

### Dünya İrsi Siyahısında yer alan şəhər növbəti festivala ev sahibliyi edir

İyulun 3-də Azərbaycanın qədim sənət və mədəniyyət mərkəzlərindən olan Şəkidə növbəti musiqi bayramı – Şəki "İpək Yolu" XII Beynəlxalq Musiqi Festivalı başlayıb.



Mədəniyyət Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqı (ABİ) və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə reallaşan festival bu dəfə ölkəmizlə bərabər, Türkiyə, Özbəkistan, Qazaxıstan və Çindən musiqi kollektivlərini, ifaçıları bir araya gətirib. Festivalda türk respublikalarından incəsənət ustalarının geniş şəkildə iştirakı TÜRKSOY-un dəstəyi ilə həyata keçirilib.

Beş gün davam edəcək festivalın təntənəli açılış mərasimi "Marxal" istirahət kompleksinin Yay teatrında keçirilib. Rəsmi hissədən sonra Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı solistlərinin ifasında ABİ-nin sədri, festivalın bədii rəhbəri Xalq artisti Firəngiz Əlizadənin "İntizar" operası nümayiş olunub.





Builki festival Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə təsadüf etməsi ilə əlamətdardır. Festival günlərində Ümummilli liderin xatirəsinə ithaf olaraq Dövlət Sərhəd Xidmətinin Nümunəvi Hərbi Orkestrinin ifasında vətənpərvərlik mahnıları, F.Əmirov adına Dövlət Mahnı və Rəqs Ansamblının və "Zəfər" muğam qrupunun iştirakı ilə konsert proqramları təqdim ediləcək.

Festivalın ikinci günündə – iyulun 4-də Şəki Xan sarayının həyətində "Zəfər" muğam ansamblının konserti olub. Konsertin əvvəlində tarzən Rüstəm Müslümovun rəhbərlik etdiyi ansamblın fəaliyyəti barədə məlumat verilib.

Ustad xanəndə, Əməkdar incəsənət xadimi Aqil Məlikovun, xanəndələr Vəfa Vəzirovanın, Hüseyn Məlikovun ifa etdikləri xalq və bəstəkar mahnıları, muğamlar alqışlarla qarşılanıb. İfaçıları tarda Rüstəm Müslümov, kamançada Elnur Salahov, balabanda Pərviz Mirzəyev, nağarada Səyyar Teymurov müşayiət ediblər.

Konsertin sonunda kollektivə festivalın xatirə hədiyyəsi təqdim olunub.




Həmin gün Yuxarı karvansarada Çinin Lianşan-İy Muxtar Vilayətini təmsil edən ansamblın konserti təqdim edilib. Şəki ilə yenicə qardaşlaşmış Lianşan şəhərinin musiqi kollektivinin çıxışı maraqla qarşılanıb.

İyulun 5-də Şəki Musiqi Kollecində şəhərin "Zirvə" folklor ansamblının çıxışı, yay teatrında Qazaxıstanın Ükili Ibray adına Akmolin Vilayət Filarmoniyasının "Aynakol" folklor ansamblı və "Qakku" rəqs ansamblının konserti keçiriləcək.

İyulun 6-da yay teatrında Safranbolu Bələdiyyəsi Xalq oyunları qrupu (Türkiyə) və Daşkənd Vilayət Filarmoniyasının "Nurafşan" ansamblının (Özbəkistan) konserti olacaq.

Festivalın son günündə isə Azərbaycan Dövlət Sərhəd Xidmətinin Nümunəvi Hərbi Orkestri (dirijor Əməkdar artist, polkovnik-leytenant Səməd Vəkilov) və F.Əmirov adına Dövlət Mahnı və Rəqs Ansamblı (bədii rəhbər və baş dirijor Xalq artisti Ağaverdi Paşayev) çıxış edəcək.

Qeyd edək ki, festivalın bağlanış mərasiminin keçiriləcəyi 7 iyul Şəki üçün əlamətdar tarixdir. 2019-cu ilin həmin günü UNESCO-nun Dünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyasında Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi təşkilatın Dünya İrsi Siyahısına daxil edilib. 7 iyul Şəkidə "Şəhər günü" kimi qeyd edilir.

2010-cu ildən bəri 11 dəfə "İpək Yolu" Beynəlxalq Musiqi Festivalına ev sahibliyi etmiş qədim şəhər ümumilikdə 40-dək ölkədən kollektivləri, musiqiçiləri, musiqişünasları bir araya gətirib. Musiqinin "İpək Yolu" yenə Şəkidən keçir...

mövzunun davamı səh. 2-də

## Sumqayıt teatrının paytxatda "qaladığı" "Ocaq"



Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşdırdığı növbəti uğurlu aksiyalarından biri də "Qonaq teatr" layihəsidir. Əsas etibarilə bölgə teatrlarını paytaxt teatrsevərləri ilə görüşdürüb onların yaradıcılığını geniş auditoriya önünə çıxaran layihə Azərbaycan peşəkar milli teatrının yaranmasının 150 illiyi münasibətilə ilin sonunadək davam edəcək.

səh. 4

## Uşaq İncəsənət Festivalının regional mərhələsi başlanıb



İyulun 3-də Uşaq İncəsənət Festivalının ikinci – regional mərhələsi başlanıb.

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkil etdiyi, "BP Azerbaijan" şirkətinin baş sponsorluğu ilə keçirilən festivalın regional mərhələsi ölkəmizin 14 iqtisadi-coğrafi rayonunun 14 şəhəri üzrə 26 məntəqədə keçiriləcək.

səh. 3

## İşə qəbul üzrə test imtahanı keçiriləcək

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə direktorların, direktor müavinlərinin və müəllimlərin işə qəbulu Qaydaları"na əsasən, qəbul prosesi müsabiqə əsasında aparılır. Müsabiqə test imtahanından və müsahibədən ibarət olmaqla iki mərhələdə təşkil olunur. Test imtahanı iyulun 16-da Dövlət İmtahan Mərkəzi (DİM) ilə birgə keçiriləcək.

səh. 7

## "Bütün əsərlərimdə həyata öz münasibətim var"

### Soltan Soltanlı: "Bəzən günlərlə düşünməyə vaxt sərf edirəm"

səh. 7

## İsti yayın caz havası



səh. 3

## Vətəndaşların növbəti qəbulu Lənkəranda keçiriləcək

səh. 4

## Milli Dram Teatrında "Şükriyyə" tamaşasının premyerası



səh. 5

# Azərbaycan Milli Kitabxanasının 100 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2023-cü ildə Azərbaycan Milli Kitabxanasının fəaliyyətə başlamasının 100 illiyi tamam olur.




Azərbaycan Milli Kitabxanası yarandığı vaxtdan etibarən şərəfli bir yol keçmiş, qarşıya qoyulan vəzifələrin öhdəsindən həmişə layiqincə gələrək ötən müddət ərzində cəmiyyətin intellektual potensialının artırılmasında baza kimi mühüm rol oynamış, ədəbiyyat sayı milyonları keçən fondlarını müntəzəm surətdə milli və dünya əhəmiyyətli nəşrlərlə, nadir kitablar, yeni-yeni çap məhsulları və qiymətli məlumat daşıyıcıları ilə zənginləşdirməklə xalqımızın mədəniyyət xəzinəsinə çevrilmişdir.

Özünəməxsus memarlıq üslubuna malik əzəmətli binada yerləşən Milli Kitabxana bu gün fəaliyyət dairəsini daha da genişləndirərək milli-mənəvi sərvətlərin etibarlı şəkildə qorunması və onun gələcək nəsillərə çatdırılması istiqamətində silsilə tədbirlər gerçəkləşdirir. İşini qabaqcıl texnologiyaların tətbiqi ilə dövrün tələbləri səviyyəsində daim təkmilləşdirən Milli Kitabxana hazırda dünya kitabxanaları ilə qarşılıqlı əməkdaşlıq əlaqələrini uğurla inkişaf etdirməkdədir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkənin mədəni-ictimai həyatında rolunu və kitabxana işinə töhfələrini nəzərə alaraq, Azərbaycan Milli Kitabxanasının 100 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Kitabxanasının 100 illiyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 24 iyun 2023-cü il**

# Yeni regional mədəniyyət idarələrinin strukturu təsdiqlənib

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin strukturuna daxil olan regional mədəniyyət idarələri yenidən təşkil edilib.

Bununla əlaqədar Prezident İlham Əliyev tərəfindən 23 fevral 2023-cü il tarixində sərəncam imzalanıb. Sərəncama əsasən, Azərbaycan Respublikasının iqtisadi rayonlarının yeni bölgüsünə (2021) uyğun olaraq, nazirliyin Sumqayıt, Xaçmaz, İsmayıllı, Şəki, Kürdəmir, Ağstafa, Şəmkir, Gəncə, Bərdə, Ağcabədi, Ağdaş, Sabirabad, Biləsuvar, Masallı və Lənkəran regional mədəniyyət idarələri əsasında Abşeron-Xızı, Dağlıq Şirvan, Gəncə-Daşkəsən, Qarabağ, Qazax-Tovuz, Quba-Xaçmaz, Lənkəran-Astara, Mərkəzi Aran, Mil-Muğan, Şəki-Zaqatala, Şərqi Zəngəzur və Şirvan-Salyan regional mədəniyyət idarələri yaradılıb.

Xatırladaq ki, Mədəniyyət Nazirliyi sistemində regional idarələr ilk dəfə 2016-cı ildə yaradılmışdı. Dövlət başçısı həmin ilin 29 martında "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olan regional mədəniyyət idarələrinin yenidən təşkili və "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında" sərəncam imzalamışdı. Həmin sərəncamla Mədəniyyət Nazirliyinin rayon-şəhər şöbələri ləğv edilmiş və 15 regional idarə, həmçinin Bakı şəhəri üzrə baş idarə yaradılmışdı. Regional idarələr 2017-ci ilin yanvarından fəaliyyətə başlamışdı.

Sərəncama uyğun olaraq, Mədəniyyət Nazirliyi tərəfindən yeni regional mədəniyyət idarələrinin strukturu və əsasnamələri təsdiqlənib.

Qeyd edək ki, Prezident İlham Əliyevin 7 iyul 2021-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasının iqtisadi rayonlarının yeni bölgüsü təsdiq edilib.

Yeni bölgü 14 iqtisadi rayonu əhatə edir. Bakı iqtisadi rayonu (Bakı şəhəri) və Naxçıvan iqtisadi rayonundan (Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonları) savayı 12 iqtisadi rayonun əhatə dairəsi aşağıdakı kimidir:

Abşeron–Xızı iqtisadi rayonu (Sumqayıt şəhəri, Abşeron və Xızı rayonları); Dağlıq Şirvan iqtisadi rayonu (Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonları); Gəncə–Daşkəsən iqtisadi rayonu (Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları); Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları); Qazax–Tovuz iqtisadi rayonu (Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonları); Quba–Xaçmaz iqtisadi rayonu (Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran rayonları); Lənkəran–Astara iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonları); Mərkəzi Aran iqtisadi rayonu (Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonları); Mil–Muğan iqtisadi rayonu (Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları); Şəki–Zaqatala iqtisadi rayonu (Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonları); Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları); Şirvan–Salyan iqtisadi rayonu (Şirvan şəhəri, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayonları).

# "Festivallar şəhəri"ndə növbəti musiqi şöləni

Azərbaycanın qədim sənətkarlıq mərkəzlərindən olan Şəki yenidən bir sıra ölkələrdən ifaçı və kollektivləri bir araya gətirib. 3-7 iyul tarixlərində şəhərdə növbəti musiqi bayramı – "İpək Yolu" XII Beynəlxalq Musiqi Festivalı keçirilir.



Mədəniyyət Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqı və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə reallaşan festivalda ölkəmizlə yanaşı, Türkiyə, Çin, Qazaxıstan və Özbəkistandan təşrif buyuran musiqiçilər öz çıxışları ilə Azərbaycana olan dostluq münasibətlərini nümayiş etdirərək musiqi şöləninə rəng qatırlar.

İyulun 3-də Şəkinin gözəl, mənzərəli guşələrindən "Marxal" Yay teatrında festivalın təntənəli açılış mərasimi oldu. Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov qonaqları və iştirakçıları salamlayaraq belə möhtəşəm bir festivalın Şəkidə keçirilməsindən böyük məmnuniyyət duyduqlarını dilə gətirdi. İcra başçısı dedi: "Şəki nəinki Azərbaycanda, dünya miqyasında gözəlliyi ilə seçilən şəhərlərdəndir. Şəki şəhəri 2010-cu ildə "Azərbaycanın sənətkarlıq paytaxtı" seçilib, 2012-ci ildə "Türk dünyasının qeyri-maddi mədəni irs paytaxtı", 2016-cı ildə "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunub. 2017-ci ildə UNESCO-nun "Yaradıcı Şəhərlər Şəbəkəsi"nə daxil edilib. 2019-cu ildə ölkəmizin və şəhərimizin həyatında çox əlamətdar hadisə baş verib. Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib".

Qeyd olundu ki, Şəki Azərbaycanda həm də "Festivallar şəhəri" kimi tanınır. Hər il bu şəhərdə keçirilən "İpək Yolu" Beynəlxalq musiqi, şirniyyat və teatr festivalları şəhərin qeyri-maddi mədəni irsinin qorunub saxlanılmasına imkan yaradıb, eyni zamanda turizm potensialının genişləndirilməsi və beynəlxalq səviyyədə tanıdılmasında mühüm rol oynayıb.

Elxan Usubov Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkəmizdə mədəni irsin qorunub saxlanılmasına, xalqımıza xas zəngin mədəniyyətin təbliğ olunmasına daim yüksək diqqət və qayğı göstərdiklərini dedi, festivalın işinə uğurlar arzuladı.

Festivalın bədii rəhbəri, Azərbaycan Bəstəkarlar İttifaqının sədri Xalq artisti, UNESCO-nun "Sülh artisti", professor Firəngiz Əlizadə builki festivala da ciddi hazırlığı və tədbirə həm Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, həm də TÜRKSOY-un göstərdiyi dəstəyi xüsusi qeyd etdi. Firəngiz xanım festivala ev sahibliyi edən Şəki Şəhər İcra Hakimiyyətinə və ümumən Şəki camaatına minnətdarlığını bildirdi.

Çıxışlardan sonra Firəngiz Əlizadənin "İntizar" operası nümayiş olundu. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı solistlərinin ifasında təqdim olunan operanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Hafiz Quliyev, musiqi rəhbəri Əməkdar artist Əyyub Quliyev, xormeysteri Əməkdar incəsənət xadimi Sevil Hacıyevadır.






Əsərdə Xalq artisti Əkrəm Poladov, Əməkdar artistlər İnarə Babayeva, Səbinə Vahabzadə, İlahə Əfəndiyeva, Ramil Qasımov, Tural Ağasiyev, həmçinin Aysel İbrahimova, Fəhmin Əhmədli, Taleh Yahyayev öz çıxışları ilə gözəl təbiət qoynunda tamaşaçıların vətən sevgisinə xüsusi rövnəq verdilər. Opera tamaşaçılar tərəfindən alqışlarla qarşılandı.

Ümumiyyətlə, "İntizar" operası öz bədii məzmunu ilə həm xalqımızın bədxahlar tərəfindən məruz qaldığı faciəvi yaşantıları, həm də böyük vətən sevgisi və mübarizliyini özündə əks etdirən tarixi bir əsərdir. Bu opera eyni zamanda Firəngiz Əlizadə yaradıcılığının zirvəsi hesab olunur. Festivalın açılış mərasimi üçün məhz "İntizar" operasının seçilməsi də təsadüfi deyildi. Bu həm vətənpərvərlik mövzusunun tərənnümü, həm də festivalın ənənələrinə uyğun olaraq klassik musiqi janrlarının təbliği ilə bağlıdır.

Xatırladaq ki, ötən illərdə keçirilən festivallarda Ü.Hacıbəylinin "Leyli və Məcnun", "Əsli və Kərəm", M.Maqomayevin "Şah İsmayıl", F.Əmirovun "Sevil" operaları və s. səhnə əsərləri nümayiş olunub.

Tamaşanın nümayişindən sonra Şəkinin icra başçısı Elxan Usubov və Xalq artisti Firəngiz Əlizadə səhnəyə çıxaraq ifaçılara təşəkkürlərini bildirdilər. Operanın quruluşçu rejissoru, Əməkdar incəsənət xadimi Hafiz Quliyev, dirijor Əməkdar artist Əyyub Quliyev yaradıcı heyət adından festivalın təşkilatçılarına və tamaşaçılara minnətdarlıqlarını ifadə etdilər.

Azərbaycanın TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı təşkilatın baş katibi Sultan Raevin adından təbriklərini çatdırdı, festivalın işinə uğurlar arzuladı. Elçin Qafarlı Elxan Usubova və Firəngiz Əlizadəyə TÜRKSOY-un 30 illiyi ilə bağlı xatirə hədiyyəsini, Akademik Opera və Balet Teatrının bir qrup yaradıcı heyətinə isə diplom və sertifikatlar təqdim etdi.

Elxan Usubov öz növbəsində Firəngiz Əlizadəyə və Opera və Balet Teatrının baş rejissoru Hafiz Quliyevə festivalın xatirə hədiyyəsini təqdim etdi.

Beləliklə, dağlar qoynu Şəkidə sayca 12-ci "İpək Yolu" Beynəlxalq Musiqi Festivalı başlandı.

**Səadət Təhmirazqızı**
**Əməkdar mədəniyyət işçisi**

# Bu festivalı hər il keçirmək qürurverici hadisədir

"Festivala "İntizar" operası ilə başladıq. Bu opera bizim tarixi Qələbəmizə həsr olunub. Bu Qələbəni müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Ordumuz, igid əsgər və zabitlərimiz əldə edib.

Bu sözləri Şəki "İpək Yolu" XII Beynəlxalq Musiqi Festivalının bədii rəhbəri, Azərbaycan Bəstəkarlar İttifaqının sədri Xalq artisti, AMEA-nın müxbir üzvü Firəngiz Əlizadə söyləyib.

Festivalın proqramının zəngin olduğunu vurğulayan Firəngiz Əlizadə diqqətə çatdırıb ki, beş gün ərzində rəngarəng konsertlər təqdim olunacaq. Hərbi orkestrin ifasında vətənpərvərlik mahnıları, musiqilər səsləndiriləcək. Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı, "Zəfər" muğam qrupu, həmçinin türk xalqlarının nümayəndələri çıxış edəcəklər. "Budəfəki festival çox əlamətdar vaxtda keçirilir. Bu il Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyidir. On iki dəfə festival keçirmək, doğrudan da, çox qürurverici hadisədir. Ümid edirik ki, festivalımız bu dəfə də şəkililərin, şəhərin qonaqlarının ürəyincə olacaq", – deyə Firəngiz Əlizadə vurğulayıb.

# "İpək Yolu"nda 8-ci dəfə çıxış edirik

Son illər Azərbaycanda möhtəşəm beynəlxalq tədbirlər, festivallar keçirilir. Belə tədbirlərdən biri də Şəki "İpək Yolu" Beynəlxalq Musiqi Festivalıdır. Dövlət Akademik Opera və Balet Teatrı olaraq "İpək Yolu" Beynəlxalq Musiqi Festivalında artıq 8-ci dəfədir iştirak edirik və bundan çox məmnunuq.

Bu sözləri Dövlət Akademik Opera və Balet Teatrının baş rejissoru Əməkdar incəsənət xadimi Hafiz Quliyev deyib.

Baş rejissor bildirib ki, bu festival çərçivəsində ötən illərdə şəkili teatrsevərlərə və şəhərin qonaqlarına Üzeyir Hacıbəylinin "Leyli və Məcnun", "Əsli və Kərəm" operaları, "Arşın mal alan" operettası, Müslüm Maqomayevin "Şah İsmayıl" operası, Qara Qarayevin "Yeddi gözəl" baleti, Fikrət Əmirovun "Sevil" operası və başqa tamaşalar təqdim edilib. Rejissor vurğulayıb ki, indiyədək bu tamaşalar Şəkinin məşhur tarixi məkanlarında – Xan sarayının qarşısında, "Yuxarı karvansara" mehmanxana kompleksində oynanılıb. Builki festivalda isə kollektiv ilk dəfə olaraq "Marxal" kompleksinin Yay teatrının səhnəsində çıxış edib.

# Filarmoniyada "Yeni adlar"ın növbəti konserti

İyulun 8-də Mədəniyyət Nazirliyinin dəstəyi ilə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş "Yeni adlar" layihəsi çərçivəsində növbəti konsert keçiriləcək.




Filarmoniyadan verilən məlumata görə, konsertdə dirijor Mustafa Mehmandarovun rəhbərliyi altında Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə solistlər, beynəlxalq müsabiqələr laureatları Nərgiz Kəngərli, Eldəniz Ələkbərzadə (piano) və Kamal Qədirov (trombon) çıxış edəcəklər.

Proqramda xarici bəstəkarların əsərləri səsləndiriləcək.

Biletləri iTicket.az saytı və şəhərin kassalarından əldə etmək mümkündür.

# Qırğızıstan və Pakistanla turizm əlaqələri müzakirə olunub

Azərbaycanla Qırğızıstan arasında turizm əlaqələrinin inkişaf perspektivləri iyulun 4-də Dövlət Turizm Agentliyinin (DTA) sədri Fuad Nağıyevlə Qırğız Respublikasının ölkəmizdəki səfiri Kayrat Osmonaliyev arasında keçirilən görüşdə müzakirə olunub.

DTA-dan bildirilib ki, görüşdə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin, birgə təbliğat tədbirlərinin keçirilməsinin və təcrübə mübadiləsinin vacibliyi vurğulanıb. Həmçinin qarşılıqlı tanıtım səfərlərinin təşkili və turist mübadiləsinin artırılması üçün birbaşa uçuşların əhəmiyyəti haqqında fikir mübadiləsi aparılıb.



Səfir Kayrat Osmonaliyev bildirib ki, iyulun 22-dən etibarən Bişkek və Bakı arasında həftədə 1 dəfə olmaqla birbaşa uçuşların həyata keçirilməsi planlaşdırılır.

Qeyd edək ki, 2023-cü ilin yanvar-may aylarında Qırğızıstandan Azərbaycana 1733 nəfər səfər edib ki, bu da 2022-ci ilin eyni dövrü ilə müqayisədə 51 faiz artım deməkdir.

***

Azərbaycan Pakistanla da turizm əlaqələrini genişləndirmək istəyir. Bu barədə iyulun 4-də DTA-nın sədri Fuad Nağıyevin Pakistanın xaricdə yaşayan pakistanlılarla iş və insan resurslarının inkişafı naziri Sacid Hüsseyn Turi ilə görüşündə fikir mübadiləsi aparılıb.

Son dövrlərdə Pakistandan gələn ziyarətçilərin sayının artdığını deyən Fuad Nağıyev bu ölkədə Azərbaycanın turizm imkanlarının tanıdılması məqsədilə tədbirlərin davam etdiriləcəyini bildirib.

Sacid Hüsseyn Turi də turizm əlaqələrinin inkişafında maraqlı olduqlarını, turizmin müxtəlif növləri, xüsusilə dağ turizmi üzrə təcrübə mübadiləsinin aparılmasının vacibliyini bildirib.

Görüşdə qarşılıqlı tanıtım və təbliğat tədbirlərinin, infoturların təşkili, birbaşa uçuşların sayının artırılması məsələləri müzakirə edilib. Qeyd edək ki, hazırda Pakistanın Lahor şəhərindən Bakıya həftədə 2 dəfə olmaqla birbaşa uçuşlar həyata keçirilir.

2022-ci ilin statistikasına əsasən, Azərbaycana gələn turist sayında Pakistan 7-ci yerdədir (51 700 nəfər). 2023-cü ilin yanvar-may aylarında ötən ilin müvafiq dövrü ilə müqayisədə Pakistandan gələn ziyarətçilərin sayında 43 faiz artım müşahidə edilib.

# Üçüncü "Yüksəliş"ə doğru – müsabiqənin yarımfinal mərhələsi keçirilib



Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2019-cu ildə təsis olunan "Yüksəliş" müsabiqəsi bu il üçüncü dəfə keçirilir. İlk müsabiqə 2020-ci ilə nəzərdə tutulsa da, pandemiya səbəbindən mərhələlər uzanaraq 2021-ci ilin iyulunda yekunlaşdı. İkinci müsabiqə 2022-ci ildə gerçəkləşdi. Dövlətimizin başçısı 2022-ci il dekabrın 20-də üçüncü "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı sərəncam imzalayıb.

Sayca üçüncü "Yüksəliş" müsabiqəsinin yarımfinal mərhələsi 1-2 iyul tarixlərində Bakı Ekspo Mərkəzində keçirilib.

Tədbirdə "Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsinin sədri, Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov, gənclər və idman naziri Fərid Qayıbov, elm və təhsil naziri Emin Əmrullayev, mədəniyyət naziri Adil Kərimli, gənclər və idman nazirinin müavini, "Yüksəliş" müsabiqəsinin İşçi qrupunun rəhbəri Fərhad Hacıyev iştirak ediblər.

Nazirlər Emin Əmrullayev, Adil Kərimli, Fərid Qayıbov, Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov çıxış edərək müsabiqənin əhəmiyyəti barədə fikirlərini bölüşüb, iştirakçılara uğurlar arzulayıblar.

Müsabiqənin əvvəlki mərhələlərini uğurla geridə qoyan iştirakçılardan 333 nəfəri finalçı olmaq uğrunda mübarizə aparıb. İştirakçıların mübarizəsi keyslər üzərindən davam edib və onların 8 səriştəsi (strateji düşünmək bacarığı, nəticələrə yönəlmək bacarığı, komandada işləmək bacarığı, kommunikasiya bacarıqları, dəyişikliklərin və innovasiyaların idarə edilməsi, liderlik, sosial məsuliyyət və effektivliyin idarə edilməsi) ekspertlər tərəfindən qiymətləndirilib.

Qiymətləndirmə prosesi beynəlxalq təcrübəyə əsaslanan "Qiymətləndirmə konfransı" metodu ilə həyata keçirilir. İştirakçılara təqdim edilən keyslər müasir dünya təcrübəsi əsasında və qabaqcıl format üzərində hazırlanaraq Azərbaycanın iqtisadiyyatı, sosial, insan resursları və yenidənqurma sahələrini ehtiva edir.




Yarımfinal mərhələsinin bağlanış mərasimində çıxış edən müsabiqənin İşçi qrupunun rəhbəri Fərhad Hacıyev iştirakçılara nümayiş etdirdikləri maraqlı mübarizə üçün təşəkkür edib, onlara uğurlar arzulayıb.

Diqqətə çatdırılıb ki, yarımfinal mərhələsinin nəticələri növbəti 3-5 iş günü ərzində açıqlanacaq.

100-ə yaxın iştirakçı final mərhələsinə keçid haqqı qazanacaq. Müsabiqənin finalı 15-16 iyul tarixlərində keçiriləcək.

Qeyd edək ki, fevralın 17-dən qeydiyyatı başlanan üçüncü "Yüksəliş" müsabiqəsinə ümumilikdə 13 min 474 iştirakçı müraciət edib. Müsabiqə onlayn və əyani seçim də daxil olmaqla 5 mərhələdən ibarətdir.

Müsabiqədə 20 qalibin seçilməsi nəzərdə tutulur. Lakin ötən müsabiqələrin təcrübəsinə nəzərən güclü rəqabət sayəsində bu sayın artması da mümkündür. Xatırladaq ki, birinci "Yüksəliş"in 27, ikincinin isə 22 qalibi olmuşdu.

Qalibi bir il ərzində idarəçi rəhbərlərdən (iri şirkətlərin top-menecerləri və dövlət orqanlarının rəhbərləri) fərdi karyera məsləhətləri almaq imkanı, kadr ehtiyatı bankına daxil edilmə və 20 min manat dəyərində pul mükafatı gözləyir.

# Uşaq İncəsənət Festivalının regional mərhələsi başlanıb

### II mərhələ respublikanın 14 şəhəri üzrə 26 məntəqədə keçiriləcək

İyulun 3-də Uşaq İncəsənət Festivalının ikinci – regional mərhələsi başlanıb.

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkil etdiyi, "BP Azerbaijan" şirkətinin baş sponsorluğu ilə keçirilən festivalın regional mərhələsi ölkəmizin 14 iqtisadi-coğrafi rayonunun 14 şəhəri üzrə 26 məntəqədə keçiriləcək.

Birinci mərhələdə iştirak etmiş şəxslər ikinci mərhələyə keçmələri, o cümlədən festivalda iştirakın müəyyən edilən vaxtı və məkanı haqqında məlumatları www.uif.az rəsmi internet portalından əldə edə bilərlər. Bunun üçün www.uif.az saytına daxil olub "II mərhələ" bölməsinə keçid edərək iştirakçının qeydiyyat kodunu və ya şəxsiyyət vəsiqəsinin FİN nömrəsini yazmaq lazımdır.

Festival məkanına gələrkən şəxsiyyətinizi təsdiq edən sənədi və iştirak məlumatlarınızın



çap olunmuş formatını özünüzlə gətirməyiniz xahiş olunur.

***

Biləsuvar Regional Mədəniyyət İdarəsinin (RMİ) əhatə etdiyi Biləsuvar, Salyan, Neftçala, Hacıqabul rayonları və Sabirabad RMİ-nin əhatə etdiyi Şirvan şəhəri üzrə iştirakçılar arasında keçirilən II mərhələ bu məntəqədə – Salyan Dövlət Kukla Teatrında reallaşıb.

İyulun 3-də piano ifaçılığı nominasiyası üzrə 48 nəfər iştirakçı istedadını nümayiş etdirib. Bu şəhər və rayonlardan festivalın II mərhələsinə ümumilikdə 206 nəfər vəsiqə qazanıb.

***

Qeyd edək ki, üç turdan ibarət, 21 nominasiyada üç yaş qrupu (6-9 yaş, 10-13 yaş və 14-17 yaş) üzrə keçirilən festivala respublikamızın bütün rayon və şəhərlərindən, o cümlədən Naxçıvan Muxtar Respublikasından 27 minədək iştirakçı müraciət edib. Peşəkar və həvəskar kateqoriyaları üzrə keçirilən festivalın birinci mərhələsi aprel-iyun aylarını əhatə edib. II mərhələ iyul-avqust aylarında reallaşacaq. Bu mərhələnin qalibləri final mərhələsində iştirak hüququ əldə edəcəklər.

Final mərhələsinin sentyabr ayında Bakıda keçirilməsi nəzərdə tutulur. Finalın yeri, tarixi və vaxtı festivalın uif.az portalında, eləcə də kütləvi informasiya vasitələrində elan olunacaq.

Festivalın yekununda ən çox nominasiya üzrə iştirak etmiş və fəallıq göstərmiş şəhər və ya rayon növbəti il festivala ev sahibliyi hüququ qazanacaq.

## "Yuğ" Teatrının mövsümdə son premyerası

İyulun 8-də Dövlət "Yuğ" Teatrında "Asılqan" tamaşasının premyerası olacaq.

Xalq yazıçısı Anarın "Asılqanda işləyən qadın" hekayəsinin motivləri əsasında hazırlanan pyesdə Cübran Xəlil Cübran, Tomas Eliot, Nazim Hikmət kimi dünya şöhrətli mütəfəkkir ədiblərin, eləcə də müasir Azərbaycan ədəbiyyatının tanınan imzalarından İlqar Kamilin, Bahar Zamanının esse və şeirlərindən istifadə edilib.

Tamaşanın rejissoru Əbdülqəni Əliyev, rəssamı Əfşan Əsədovadır.

"Asılqan"da onlarca geyim, obraz cəmi iki aktyorun ifası ilə canlanır. Bu mənada tamaşa gənc sənətçilər – Elşən Əsgərov və Ləman Mərrihin olduqca mürəkkəb quruluşda peşəkar performansı sayılmalıdır.



Qeyd edək ki, "Asılqan" bu mövsümdə "Yuğ"un son premyerası olacaq.

# İsti yayın caz havası



Xəbər verdiyimiz kimi, 3-7 iyul tarixlərində Heydər Əliyev Mərkəzində "Bakı Yay Caz Günləri" keçirilir.

Silsilə konsertlərin açılış günü Heydər Əliyev Mərkəzinin Auditorium zalında Türkiyənin məşhur gitaraçısı Önder Focan və Meltem Ege qrupu Bakı Kamera Orkestri ilə birgə səhnəni bölüşüb.

Daha sonra pianoçu Elçin Şirinov və kvartetinin konserti olub. 4 il ərzində İsrailin "Avişai Kohen trio"sunda çalışaraq dünyanın bir çox ölkələrində çıxış edən Elçin Şirinov israilli musiqiçilərlə doğma şəhərində çılğın və şıltaq caz ritmlərini səsləndirib.

İyulun 4-də Heydər Əliyev Mərkəzində məşhur caz pianoçu Alfredo Rodrigez (Kuba-ABŞ) triosu ilə çıxış edib. "Qremmi" mükafatı nominantı Alfredo Rodrigez dünya turnesi çərçivəsində Bakıda cazsevərlər qarşısına çıxıb.



Artıq 5-ci dəfədir ki, təşkil edilən festivalın konsertləri qapalı məkanlarla yanaşı, açıq havada da təqdim edilir. Əvvəlki illərdə olduğu kimi, bu il də caz günlərinin proqramı olduqca zəngindir.

İyulun 5-də pianoçu, aranjimançı, Berkli Musiqi Kollecinin professoru Giorgi Mikadze Heydər Əliyev Mərkəzinin parkında triosu ilə birgə tanınmış gürcü bəstəkarlarının caz improvizasiyalarını ifa edəcək. Həmin gün Azərbaycan cazının əfsanəsi Vaqif Mustafazadənin adını daşıyan 2 nömrəli Uşaq incəsənət məktəbinin şagirdləri də Heydər Əliyev Mərkəzinin parkına toplaşanlara caz axşamı bəxş edəcəklər.

Caz günlərinin yekun akkordunu iyulun 7-də Oleq Lundstrem adına Caz Orkestri vuracaq.

Park ərazisindəki konsertlərə giriş sərbəstdir. Auditorium zalındakı konsertlərin biletlərini şəhərin kassaları və iTicket.az saytından əldə etmək olar.

## Mədəniyyət Nazirliyində kinorejissor Cəmil Quliyevlə görüş

İyulun 3-də kinorejissor, Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət Film Fondunun direktoru, professor Cəmil Quliyevin 60 yaşı tamam oldu. Bu münasibətlə Mədəniyyət Nazirliyində yubilyarla görüş keçirilib.



Mədəniyyət naziri Adil Kərimli 60 illik yubileyi ilə əlaqədar rejissora nazirliyin kollektivi və ölkəmizin mədəniyyət ictimaiyyəti adından təbriklərini çatdırıb.

Cəmil Quliyev fəaliyyətinə göstərilən diqqətə görə nazirə təşəkkürünü bildirib.

Qeyd edək ki, gənc yaşlarından taleyini kino sahəsinə bağlayan Cəmil Quliyev "Azərbaycanfilm" kinostudiyasında quruluşçu rejissor kimi bir sıra bədii və sənədli filmləri lentə alıb. 35 ildən çoxdur Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyət göstərir, kinematoqraf kadrların hazırlanmasına öz töhfəsini verir.

Cəmil Quliyevi əlamətdar yubileyi münasibətilə təbrik edir, möhkəm cansağlığı, uzun ömür və işlərində uğurlar arzulayırıq.

## Bakıdan dünyaya daha bir qardaşlıq teli

Bakı şəhəri ilə Çin Xalq Respublikasının Siçuan əyaləti arasında dostluq və tərəfdaşlıq münasibətlərinə dair anlaşma memorandumu imzalanıb.



Sənəd Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) başçısı Eldar Əzizovun rəhbərlik etdiyi nümayəndə heyətinin Çin tərəfinin dəvəti ilə Siçuan əyalətinə səfəri zamanı imzalanıb.

BŞİH-nin mətbuat xidmətindən bildiriblər ki, Siçuan əyalətinin qubernatoru Huan Çian ilə keçirilən görüşdə qarşı tərəf Çin Xalq Respublikası vətəndaşlarının Bakı şəhərinə və Azərbaycana olan marağı nəzərə alınaraq, Çendu–Bakı aviareysinin açılması təklifini irəli sürüb.

Bakı şəhərinin nümayəndələri Çinin paytaxtı Pekində də olublar. Şəhər merinin müavini xanım Sima Honla görüş zamanı paytaxt şəhərlər arasında əməkdaşlığa dair planlar müzakirə edilib.

Pekin meriyası nümayəndə heyətinin Bakıya səfəri və iki paytaxt arasında əməkdaşlığa dair memorandumun imzalanması barədə razılıq əldə edilib.

## Hans Zimmerin musiqiləri Heydər Əliyev Sarayında səslənəcək

İyulun 16-da Heydər Əliyev Sarayında alman bəstəkarı Hans Zimmerin məşhur kino musiqilərindən ibarət konsert proqramı təşkil olunacaq.

Sarayın mətbuat xidmətindən verilən məlumata görə, "Hans Zimmer dünyası" adlı konsertdə "Tynda Music" Simfonik Orkestri və xorun ifasında Hans Zimmerin bəstələdiyi musiqilər, film soundtrekləri səsləndiriləcək.

Qeyd edək ki, Hans Zimmer dünya kino sənayesində ən yenilikçi bəstəkarlardan biri kimi tanınır. O, elektron musiqi səslərinin ənənəvi orkestr aranjimanlarına birləşdirməsi ilə diqqət çəkir. H.Zimmerin musiqisi sayəsində bir çox dünya filmləri tanınaraq uğurlu nəticələr əldə edib.

## Müasir Azərbaycan mediası – peşəkarlıq standartları və yeni trendlər

### Elmi-praktik konfrans



İyulun 4-də Bakı Dövlət Universitetinin (BDU) Jurnalistika fakültəsinin təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Müasir Azərbaycan mediası – peşəkarlıq standartları və yeni trendlər" mövzusunda respublika elmi-praktik konfransı keçirilib.

Konfransın əvvəlində BDU-nun rektoru Elçin Babayev "Heydər Əliyev İli" çərçivəsində universitetdə keçirilən tədbirlərdən söz açıb. Bildirib ki, Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıtması bütün sahələrdə olduğu kimi, ölkə mediasının da inkişafında mühüm dəyişikliklərə səbəb oldu. Eyni zamanda, media fəaliyyətinin əsaslandığı qanunvericilik bazasının təkmilləşdirilməsi sahəsində görülən işlər medianın inkişafına zəmin yaratdı. Vurğulanıb ki, Medianın İnkişafı Agentliyi, Azərbaycan Respublikası Audiovizual Şurası, Azərbaycan Mətbuat Şurası kimi qurumların fəaliyyəti media siyasətinin məntiqi davamı və nəticəsidir.

Tədbirdə Heydər Əliyevə həsr olunmuş "BDU-nun dünya şöhrətli məzunu" adlı videoçarx nümayiş olunub.

Sonra Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, Bakı Slavyan Universiteti Jurnalistika kafedrasının müdiri Vüqar Rəhimzadə və başqaları mövzu ilə bağlı çıxış ediblər.

# Mədəniyyət naziri Lənkəranda vətəndaşları qəbul edəcək

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli iyulun 14-də saat 10:00-da Lənkəran şəhər Mədəniyyət Mərkəzində (Zərifə Əliyeva küçəsi 99) əsasən Lənkəran, Astara və Lerik şəhərlərindən olan vətəndaşlarla görüşəcək.

Vətəndaşlar iyulun 10-dək nazirliyin info@culture.gov.az elektron poçt ünvanı, (012) 493-30-02 telefon nömrəsi vasitəsilə və vatsap xidmətinə (0 777 147 147) müraciət etməklə qəbula yazıla bilərlər.

# “Heydər Əliyev və Azərbaycan polisi”

Zəngilan rayon Mədəniyyət evinin dəstəyi, rayon İcra Hakimiyyəti və Polis şöbəsinin təşkilatçılığı ilə “Heydər Əliyev və Azərbaycan polisi” adlı tədbir keçirilib.




2 iyul – Azərbaycan Polisi Günü münasibətilə gerçəkləşən tədbirdə Zəngilan Rayon Polis Şöbəsinin rəisi Bəkir Cabbarov hüquq-mühafizə orqanlarına göstərdiyi diqqət və qayğıya görə dövlət başçısına minnətdarlığını bildirib.

Zəngilan Rayon İcra Hakimiyyətinin başçısı Ramiz Həsənov əlamətdar gün münasibətilə hüquq-mühafizə orqanlarının əməkdaşlarını təbrik edib.

Çıxışlardan sonra səmərəli fəaliyyətləri ilə fərqlənən Zəngilan Rayon Polis Şöbəsinin bir sıra əməkdaşları İcra Hakimiyyəti tərəfindən fəxri fərmanla təltif olunublar. Keçmiş polis əməkdaşlarına və qazilərə hədiyyələr təqdim edilib.

Bədii hissədə “Xarıbülbül” instrumental ansamblının müşayiəti ilə Əməkdar artistlər Almaz Orucova, Babək Niftəliyev, müğənnilər Mirələm Mirələmov, Tural Salmanov, Təranə Qumral, Musa Musayev, Məlahət Hüseynova və Sevgim Musazadə konsert proqramı ilə çıxış ediblər.

# Gəncədə “bəşəri bəla”ya qarşı mübarizə mövzusunda təlim

“Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı”nın müvafiq bəndinin və “Yeniyetmələr və gənclər arasında narkomaniyaya qarşı təbliğat və maarifləndirmə işlərinin genişləndirilməsinə dair 2022–2023-cü illəri əhatə edən Tədbirlər Planı”nın icrası ilə bağlı təlim Gəncədə təşkil olunub.

Təlim Mədəniyyət Nazirliyi və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyası işçi qrupunun birgə təşkilatçılığı ilə Gəncə şəhər Heydər Əliyev Mərkəzində keçirilib.



Regional idarənin tabeliyində fəaliyyət göstərən müəssisələrin əməkdaşlarının iştirakı ilə keçirilən təlimdə Dövlət Komissiyası Milli informasiya sektorunun müdiri Raqif Allahverdiyev çıxış edərək narkotik maddələrdən istifadənin risk amilləri, psixoaktiv maddələrin xüsusiyyətləri və onların sağlamlığa zərərli təsiri, narkotik asılılığın formalaşma mərhələləri, narkotik əleyhinə təbliğatın vacibliyindən, narkomanlığa qarşı mübarizə üsulları barədə geniş məlumat verib, iştirakçıların sualları ətrafında müzakirələr aparılıb.

**Hazırladı: N.Məmmədli**

# “Heydər Əliyev İli” ilə bağlı tədbirlər

Abşeron rayon Xırdalan şəhər onbirillik Musiqi məktəbinin kollektivi “Heydər Əliyev İli” münasibətilə Mingəçevir, Yevlax şəhərlərində və Bərdə rayonunda konsert proqramları ilə çıxış edib.

Sumqayıt RMİ-nin təşkilatçılığı və dəstəyi ilə gerçəkləşən konsertlər böyük maraqla və alqışlarla qarşılanıb. Məktəbin direktoru Əməkdar müəllim İkram Manafov çıxışında yaradılan şəraitə görə şəhərin rəhbərliyinə təşəkkürünü bildirib. Konsertin sonunda xatirə şəkilləri çəkdirilib.

***

Masallı rayon Mərkəzi Kitabxanasında “Heydər Əliyev və Azərbaycanın iqtisadi inkişaf strategiyası” mövzusunda tədbir keçirilib. Çıxışlarda Ulu öndər Heydər Əliyevin ölkədə yeni iqtisadi sistemin əsasını qoyması, aparılan iqtisadi islahatlar haqqında məlumat verilib. Tədbirdə həmçinin Ümummilli liderin müəllifi olduğu neft strategiyasından, iqtisadiyyatımızın dünya iqtisadiyyatına inteqrasiyasından bəhs olunub.






# Şəki Çinin daha bir şəhəri ilə qardaşlaşıb

## Qədim sənətkarlıq mərkəzinin qardaşlaşdığı şəhərlərin sayı 13-ə çatıb

Bu günlərdə “İpək Yolu” XII Beynəlxalq Musiqi Festivalına ev sahibliyi edən Şəki şəhərinin tarixində daha bir əlamətdar hadisə baş verib. Sənətkarlıq paytaxtımız Çin Xalq Respublikasının Lianşan şəhəri ilə qardaşlaşıb.



İyulun 3-də Şəki ilə Lianşan arasında dostluq və qardaşlıq haqqında protokolun imzalanmasına həsr olunmuş mərasim keçirilib.

Mərasimdə Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov qonaqlara Azərbaycanın bu qədim şəhərinin mədəniyyəti, iqtisadiyyatı, kənd təsərrüfatı, ipəkçilik ənənələri, turizm imkanları barədə geniş məlumat verib. Diqqətə çatdırılıb ki, iyulun 7-də Şəkinin 2711 illiyi təntənəli şəkildə qeyd ediləcək. Hər il bu şəhərdə bir neçə beynəlxalq festival keçirilir. Əlamətdar haldır ki, Şəkidə keçirilən “İpək Yolu” XII Beynəlxalq Musiqi Festivalında Çindən də musiqi kollektivi iştirak edir. Vurğulanıb ki, yeni imzalanan dostluq və əməkdaşlıq xartiyası bu şəhərlər arasında mədəni, iqtisadi və turizm sahələrində əlaqələrin yaranmasında mühüm rol oynayacaq.

Lianşandan gələn nümayəndə heyətinin rəhbəri Huang Yuchao qonaqpərvərliyə görə şəhər rəhbərliyinə minnətdarlığını bildirib. Deyib ki, Lianşan Çinin Yi adlanan etnik qrupunun məskunlaşdığı ən böyük hissəsidir. Əhalisi 5 milyon nəfərə yaxındır. Lianşan Çində təbii sərvətlərlə zəngin tanınmış ərazidir.

İmzalanma mərasimindən sonra hər iki şəhərin rəhbərliyi adından qarşılıqlı xatirə hədiyyələri təqdim olunub.

Qeyd edək ki, Lianşan Şəkinin Çindən qardaşlaşdığı ikinci şəhərdir. 2019-cu ildə sənətkarlıq paytaxtımız bu ölkənin Hunan əyalətinin Janciajiye şəhəri ilə qardaşlaşmışdı. Bununla da Şəkinin indiyədək qardaşlaşdığı şəhərlərin sayı 13-ə çatıb.

# Paytaxt teatrları bayram tətilində bölgələrdə çıxış edib

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100, Azərbaycan peşəkar milli teatrının yaranmasının 150 illiyi münasibətilə Mədəniyyət Nazirliyi tərəfindən təşkil olunan silsilə tədbirlər çərçivəsində paytaxt teatrlarının regionlara qastrol səfərləri Qurban bayramı ilə əlaqədar elan olunmuş tətil günlərində də davam edib.



Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının kollektivi iyunun 27-də Lənkəran Dövlət Dram Teatrında Yuri Entin və Vasili Livanovun Qrim qardaşlarının eyniadlı məşhur nağılının motivləri əsasında yazdıqları “Bremen musiqiçiləri” tamaşasını nümayiş etdirib.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı Əli Əmirlinin “Ah, bu uzun sevda yolu” tamaşası ilə Mingəçevir Dövlət Dram Teatrının səhnəsində çıxış edib.

Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı isə iyunun 27-də şəkili teatrsevərlərin qonağı olub. Kollektiv Şəki Dövlət Dram Teatrında “Ələddin, şahzadə Jasmin və çıraqdakı Cinin macəraları” tamaşasını təqdim edib.

Xatırladaq ki, bu ilin mart ayından təşkil edilən və ölkəmizdə teatr proseslərinin canlandırılmasını nəzərdə tutan qastrol aksiyasının məqsədi regionlarda mədəni həyatın fəallaşdırılması, əhalinin, xüsusilə də gənclərin asudə vaxtının daha mənalı keçirilməsi, yerli yaradıcı kollektivlərlə sıx ünsiyyət və faydalı təcrübə mübadiləsinə şərait yaratmaqdan ibarətdir.

# “Yarımçıq arzular: “Dəmir yumruq”

Qazax rayon MKS-nin Mərkəzi Kitabxanası rayon Mədəniyyət Mərkəzində şair Əsli İsmayılqızının yaradıcılığına həsr olunmuş “Yarımçıq arzular: “Dəmir yumruq” adlı görüş keçirib.

Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra MKS-nin direktoru Fəridə Xudiyeva Ə.İsmayılqızının həyat və yaradıcılığı haqqında məlumat verib.




Digər çıxış edənlər də şairin söz dünyasından danışıb, fəal oxucular müəllifin bir neçə şeirini söyləyiblər.

Daha sonra Qazax şəhər 2 nömrəli Uşaq musiqi məktəbinin şagirdləri tərəfindən saz havaları ifa olunub.

Sonda şairə Ə.İsmayılqızı çıxış edərək tədbirin təşkilində əməyi keçən hər kəsə təşəkkürünü bildirib, “Yarımçıq arzular: “Dəmir yumruq” və “Əjdaha” ləqəbli şəhid” adlı kitablarını Mərkəzi Kitabxanaya hədiyyə edib.



Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşdırdığı növbəti uğurlu aksiyalarından biri də “Qonaq teatr” layihəsidir. Əsas etibarilə bölgə teatrlarını paytaxt teatrsevərləri ilə görüşdürüb, onların yaradıcılığını geniş auditoriya önünə çıxaran layihə Azərbaycan peşəkar milli teatrının yaranmasının 150 illiyi münasibətilə ilin sonunadək davam edəcək.

# Sumqayıt teatrının Bakıda “qaladığı” “Ocaq”

## Bütün ümidsizliklərin açarı sevgi və inamdadır...

Hələlik cari teatr mövsümünün son qonaq kollektivi Sumqayıt Dövlət Dram Teatrı oldu. İyulun 3-də gənclər şəhərinin teatr təmsilçiləri repertuarlarındakı baxımlı nümunələrdən birini – Türkiyə yazıçısı Turqut Özakmanın eyniadlı əsəri əsasında hazırlanan “Ocaq” tamaşasını ATXİ-nin səhnəsində (“Aktyor evi”) təqdim etdilər.

Nümayişdən öncə səhnəyə çıxan ATXİ-nin sədr müavini Xalq artisti Hacı İsmayılov 150 yaşlı peşəkar milli teatrımızın son 55 ilində öz yeri, öz payı olan Sumqayıt teatrı haqqında qısa məlumat verdi, sənət ocağının ötən zaman ərzində özünəməxsus ənənə formalaşdıra bildiyini dedi.

Teatrın baş rejissoru Xalq artisti Firudin Məhərrəmov paytaxtda teatrsevərlərlə bu görüşün, fərqli auditoriya ilə ünsiyyətin onlara əsl bayram ovqatı bəxş etdiyini bildirdi, onlara bu imkanı yaradan layihənin ideya müəlliflərinə və təşkilatçılara təşəkkür etdi.

Sonra Xalq artisti Firudin Məhərrəmovun quruluş verdiyi “Ocaq” tamaşası nümayiş olundu.

Sıxıntılar içində yaşayan bir ailənin faciəsi kontekstində cəmiyyət, zaman və insan problemlərinin ön planda olduğu tamaşanın quruluşçu rəssamı Mustafa Mustafayev, musiqi tərtibatçısı Telman Qəniyevdir.

Birhissəli səhnə əsərində rolları Əməkdar artistlər Növrəstə Həşimova, Xatirə Süleymanova, Rauf Ağakişiyev, Cəlal Məmmədov, aktyorlar Habil Xanlarov, Şəmistan Süleymanlı və Şəhla Məmmədova oynayırlar.

Tamaşada bu ailənin timsalında hansısa konkret məkan və ya fərdlərin yox, saysız ailələrin üzləşdiyi problemlərin qabarıq təzahürlərini, müxtəlif düşündürücü məqamları ilə ümumiləşdirilmiş obrazlarını görürük. Bütün sıxıntılara rəğmən tamaşanın əvvəlindən bir ümid, yeniliyin olacağına inam da var. Ailənin fərdləri pəncərə önünə düzülərək uzaqlara nəzər salır və daxili inamlarını büruzə verərək gülümsəyirlər.

Yeddinəfərlik ailənin başçısı əlini atdığı hər işdə uğursuzluq ilə qarşılaşan, buna rəğmən ümidini itirməyərək xəyallar quran, nə isə etmək istəyən ata Tarıkdır (R.Atakişiyev), ailənin əsas dayağı isə övladlarının hər birinin çox istədiyi, ərinin sədaqətli ömür-gün yoldaşı, hər bir çətinliyə dözən, təmkinli, səbirli, qayğıkeş ana Səfiyyədir (X.Süleymanova).

Tamaşada ümumi gərginliyə aram verib, təbəssüm yaradan tiplər də var. Onlar özünü Paşa qızı sayan və ömrü boyu bu xülya ilə yaşayan, öz kasıblığının intiqamını guya sürgündə olan Paşa atasının gəlişi ilə alacağına inanan xəyalpərəst Nənə (N.Həşimova), eləcə də ondan heç də geri qalmayan iki nəvəsi – Nihat (C.Məmmədov) və Özcandır (Ş.Süleymanlı).



Uğursuzluqlarla döyüşən ailənin ömrü boyu işləyib doğmalarına baxan bir oğlu da Fazildir (H.Xanlarov). Ortancıl oğul Fazil ailənin bütün ağırlığını öz çiyinlərində daşıyır, nənəsi və böyük qardaşı Nihat kimi xəyalpərəst deyil. Ailəsinin çətin, ağır həyatı onu üzür, atasına kömək durmağa çalışsa da, bəzi fikir ayrılıqları onların birgə iş qurmalarına mane olur.

Tamaşada maraqlı obrazlardan biri də ailənin yeganə qızı Sevdadır (Ş.Məmmədova). Üç qardaşın tək bacısı, ayağı şikəst olan Sevda anasının köməyi, dayağıdır, atasının çox sevdiyi əziz bir qızıdır. Nə anası kimi səbirdən, nə də atası kimi xoş xəyallardan əl çəkir. Elə buna görə də onu sevgi və evlənmək vədi ilə asanlıqla aldadan saatsaz köməkçisinin tələsinə düşür və evlərini tərk edir.

Əslində, onun bu mənguənədən, sarsıntılar içində hər gün münasibətləri daha da gərginləşən ailədən çıxması, özünə ailə qurması anası və qardaşı Fazilin də ürəyindəndir. Təki içlərindən kimsə xoşbəxt olsun. Amma təəssüf ki, bu da alınmır və qız bir müddətdən sonra korpeşman evlərinə dönür.

Bu və başqa sadə görünən səbəblərdən ailədaxili gərginlik, narahatlıq, ata və oğullar, qardaşlar arasında olan qarşılıqlı narazılıqlar getdikcə artaraq, arzuolunmaz həddə – kulminasiya nöqtəsinə çatır. Ailə dağılmağa, parçalanmağa doğru gedir. Hətta heç bir işin qulpundan yapışmaq istəməyən, qardaşı Fazilin hesabına ortada yeyib, qıraqda gəzən Nihat da evdən getmək fikrinə düşür. Sözsüz ki, bütün bunlar ananın da səbir kasasını daşırır və biz onun göz yaşları içində daxili əzablarını hiss edirik.

Amma bütün bunlara rəğmən hələ də itməyən inam və ailə bağları – məhəbbət və ümid bu ailəni parçalanmağa qoymur, onlar yenidən bir araya gələrək acı reallığın içində, özü də xəyal qura-qura yaşamağa davam edirlər. Sözsüz ki, heç vaxt itməyən ümidin ətəyindən yapışaraq.

Tamaşaçıya bütün ümidsizliklərin açarı sevgi və inamdadır ismarışını verən tamaşa alqışlarla qarşılandı.

Sonda Sumqayıt Dövlət Dram Teatrının kollektivi 55 illiyi münasibətilə, baş rejissor Firudin Məhərrəmov isə milli teatr sənətinin inkişafındakı xidmətlərinə görə ATXİ-nin fəxri fərmanları ilə təltif olundu.

**Həmidə Nizamiqızı**

# Xalq rəssamının 75 illik yubileyi çalışdığı teatrda qeyd edilib

İyunun 29-da Akademik Milli Dram Teatrının baş rəssamı, Dövlət mükafatı laureatı, Xalq rəssamı Nazim Bəykişiyevin 75 yaşı tamam olub.



Mədəniyyət naziri Adil Kərimli bu münasibətlə sənətkarı təbrik edib. Təbrik məktubunda yubilyarın təsviri sənət və teatr sənəti sahəsində xidmətləri yüksək dəyərləndirilib.

Nazim Bəykişiyevin 75 illik yubileyi Milli Dram Teatrında qeyd olunub. Rəssama Mədəniyyət İşçiləri Həmkarlar Komitəsi və Akademik Milli Dram Teatrının adından təbrik məktubu, mükafat təqdim olunub.

Teatrın bədii rəhbəri Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə, direktor əvəzi Əməkdar mədəniyyət işçisi İlham Əsgərov, teatrşünas, professor Məryəm Əlizadə Nazim Bəykişiyevin yaradıcılığı haqqında danışıb, onun yüksək peşəkarlıqla tərtibat verdiyi tamaşalardan bəhs ediblər.

Qeyd olunub ki, Nazim Bəykişiyevin milli teatr sahəsindəki xidmətləri və uzunillik yaradıcılıq fəaliyyəti yüksək qiymətləndirilib. O, 1984-cü ildə Dövlət mükafatına, 2002-ci ildə "Əməkdar rəssam", 2006-cı ildə "Xalq rəssamı" fəxri adlarına layiq görülüb. 2009-cu ildən Prezidentin fərdi təqaüdçüsüdür.

Diqqətə çatdırılıb ki, Nazim Bəykişiyev Sumqayıt Dövlət Dram Teatrında quruluşçu rəssam (1978-1980), Musiqili Komediya Teatrında (1980-1991) və Gənclər Teatrında (1991-2001) baş rəssam kimi bir çox səhnə əsərlərinə bədii tərtibat verib. 2001-ci ildən Akademik Milli Dram Teatrının baş rəssamıdır. Bu sənət ocağında S.Rəhmanın "Əliqulu evlənir", H.Cavidin "İblis" və "Afət", M.F.Axundzadənin "Lənkəran xanının vəziri" və "Müsyö Jordan və dərviş Məstəli şah", V.Səmədoğlunun "Yayda qartopu oyunu", V.Şekspirin "Hamlet", O.İoselianinin "Kaş araba aşmayaydı!", J.Koktonun "İnsan səsi", A.Məsudun "Qatarın altına atılan qadın", V.Hüqonun "Qadın məhəbbəti", V.Səmədoğlunun "Generalın son əmri", R.Əlizadənin "Laləli düzən", H.Mirələmovun "Vəsiyyət", Elçinin "Qatil", M.Qavranın "Qəribə, çox qəribə əhvalat", C.Məmmədquluzadənin "Dəli yığıncağı" və s. tamaşaların quruluşçu rəssamı olub.

Tədbirdə çıxış edənlər 75 illik yubileyi münasibətilə Nazim Bəykişiyevi təbrik edib, ona uzun ömür, möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları arzulayıblar.

# Teatr orkestrin tərkibini genişləndirir

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı simfonik orkestrin genişləndirilməsi məqsədilə müsabiqə elan edib.

Teatrdan bildirilib ki, müsabiqə iyulun 5-dən 9-dək keçiriləcək.

Orkestrdə birinci və ikinci skripkalar sırasına qatılmaq istəyənlər ifa bacarıqlarını 5-6 iyulda nümayiş etdirəcəklər. Alt, violonçel və kontrabas ifaçıları üçün müsabiqə iyulun 7-də, taxta nəfəs alətləri üzrə iyulun 8-də, mis nəfəs alətləri, zərb alətləri, arfa və fortepiano üzrə iyulun 9-da olacaq.

İştirak üçün sənədlər iyulun 1-dən yalnız elektron qaydada azstateoperabaku@gmail.com e-maili vasitəsilə qəbul edilir. Müsabiqə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında keçiriləcək.

# Milli Dram Teatrında "Şükriyyə" tamaşasının premyerası keçirilib

Xəbər verdiyimiz kimi, Akademik Milli Dram Teatrında yazıçı Cavid Zeynallının "Şükriyyə" pyesi əsasında hazırlanan eyniadlı tamaşanın premyerası olub.



İyunun 30-da nümayiş olunan tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Bəhram Osmanovdur. Səhnə tərtibatçısı Samirə Həsənova, geyim üzrə rəssamı Aygün Mahmudova, işıq rəssamı Rafael Həsənov, musiqi tərtibatçısı Kamil İsmayılov, rejissor assistenti Nərmin Həsənovadır.

Yeni yaradıcılıq işində Əməkdar artist Münəvvər Əliyeva (Şükriyyə), Xalq artistləri Nurəddin Mehdixanlı (Fyodor Alekseyeviç), Əli Nur (Süleyman bəy), Əməkdar artistlər Mehriban Xanlarova (Zöhrə), Vəfa Rzayeva (Mariya), aktyorlar Afət Məmmədova (Tamar), Rada Nəsibova (Lola), Ləman İmanova (Suğra), Əməkdar artist Şəlalə Şahvələdqızı (Qadın müstəntiq), aktrisalar Dilarə Nəzərova (Olqa), Rüstəm Rüstəmov (Nəzarətçi) və başqaları rol alıblar.

Tamaşa Azərbaycanın istiqlal şairi Əhməd Cavadın həyat yoldaşı Şükriyyə Axundzadənin Qazaxıstandakı sürgün həyatı haqqındadır. 1937-ci ildə həbs olunan Şükriyyə xanıma 8 il həbs cəzası verilib və o, Şimali Qazaxıstanın Akmolinsk vilayətinə – əmək koloniyasına göndərilib.

# Vladivostok teatrı Bakıda qastrol səfərindədir

Xəbər verdiyimiz kimi, Rusiyanın Vladivostok şəhərində fəaliyyət göstərən Maksim Qorki adına Primorsk Akademik Vilayət Dram Teatrı (bədii rəhbər Xalq artisti, "Qızıl maska" mükafatı laureatı Yefim Zvenyatski) Bakıya qastrol səfərinə gəlib.




1-9 iyul tarixlərini əhatə edən səfər "Heydər Əliyev İli" çərçivəsində və Azərbaycan peşəkar milli teatrının 150 illiyi münasibətilə Rusiya Federasiyası Primorsk Vilayəti Hökuməti və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşır.

Primorsk Akademik Vilayət Dram Teatrı bu il 90 yaşını qeyd edir. Uzaq Şərqdə, Sakit okeanın sahilində klassik rus psixoloji teatr ənənələrini qoruyub saxlayan qocaman akademik teatrın qastrol tamaşaları Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının səhnəsində nümayiş olunur.

Qastrol Mixail Bulqakovun məşhur romanı əsasında iki il əvvəl, teatrın 88-ci mövsümündə səhnəyə qoyulmuş "Master və Marqarita" tamaşası ilə (1-2 iyul) başlayıb.

Qeyd edək ki, teatrın qastrol səfərinə tamaşaçıların diqqət və marağı ilə əlaqədar "Master və Marqarita" təkrar olaraq 4 iyulda da nümayiş olunacaq. Bundan əlavə, ispan dramaturqu Lopa de Veqanın "Nə yardan doyur, nə əldən qoyur" komediyası əvvəlcə nəzərdə tutulduğu kimi bir dəfə deyil, iki dəfə – iyulun 5-də və 8-də təqdim ediləcək.

6-7 iyulda isə tamaşaçılar əfsanəvi fransız müğənni Edit Piafın həyatından bəhs edən "Edit və onun şeytanları" musiqili-mistik melodramını izləyə biləcəklər.

Vladivostok teatrının Bakı qastrolu iyulun 9-da rus yazıçısı Valentin Pikulun "Kreyserlər" tarixi romanı əsasında hazırlanmış tamaşa ilə başa çatacaq.

"Edit və onun şeytanları" və "Kreyserlər" teatrın eksklüziv tamaşalarıdır, üstəlik, ilk dəfə Vladivostok teatrında səhnələşdirilən "Kreyserlər" Rusiya Federasiyası Hökumətinin mükafatına layiq görülüb.

Primorsk Akademik Vilayət Dram Teatrının yaydığı məlumata görə, bu, yaradıcı kollektivin Rusiyadan kənarda ən irimiqyaslı qastrol səfəridir.

# 100 yaşlı universitetdə "Məzun günü"



Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) "Məzun günü" keçirilib.

ADMİU-nun rektoru Ceyran Mahmudova bütün məzunları təbrik edib. 2023-cü ildə Ulu öndər Heydər Əliyevin 100, Azərbaycanda peşəkar milli teatrın yaranmasının 150 və respublikada yaradıcılıq yönümlü ilk ali təhsil ocaqlarından biri olan ADMİU-nun 100 illik yubileylərinin qeyd edildiyini xatırladan rektor məzunlara mədəniyyətimizə layiqincə xidmət etməyi arzulayıb.

Rəssamlıq, Kulturologiya, Kino və televiziya, Teatr sənəti, Musiqi sənəti fakültələrinin dekanları Sayalı Quliyeva, Vasif Adilov, Elnur Mehdiyev, Böyükxanım Talıbova və İradə Xəlilova məzunlara təbriklərini çatdırıb, uğurlar arzulayıblar.

Tədbirin bədii hissəsində ADMİU-nun məzunu olmuş sənətçilər musiqi nömrələri ilə çıxış ediblər.

# AzMİU-da 1720 tələbə məzun olub

Azərbaycan Memarlıq və İnşaat Universitetindən (AzMİU) bu il 1320 bakalavr, 400 magistr olmaqla ümumilikdə 1720 tələbə məzun olub.

Təntənəli buraxılış mərasimində çıxış edən AzMİU-nun rektoru professor Gülçöhrə Məmmədova diqqətə çatdırıb ki, məzun olan 1320 bakalavrdan 63 nəfər əcnəbi tələbədir. AzMİU-nun nəzdindəki İnşaat Kollecini isə bu il 429 subbakalavr bitirir. Məzunların 28 nəfəri universiteti fərqlənmə diplomu ilə başa vurub. Rektor ali təhsili uğurla başa vuran gənclərin gələcəkdə ölkəmizdə, xüsusilə də işğaldan azad olunmuş ərazilərdə tikinti-quruculuq işlərinə töhfə verəcəklərinə əminliyini bildirib.



Mərasimin qonaqları da çıxışlarında məzunları təbrik edib, onlara dəyərli tövsiyələr veriblər, peşəkar karyera yolunda atacaqları addımlarda uğurlar diləyiblər.

Çıxışlardan sonra rektor və mərasimin fəxri qonaqları AzMİU-nun müxtəlif fakültələrini əla qiymətlərlə bitirmiş tələbələrə fərqlənmə diplomlarını təqdim ediblər.

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycanın onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (44)

**1993-cü il 19-22 dekabr**

Prezident Heydər Əliyev Fransaya rəsmi səfəri gedişində Parisdəki Sen Klu qəbiristanlığında Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından Əlimərdan bəy Topçubaşovun, Ceyhun Hacıbəylinin məzarlarını ziyarət edib. Prezident Fransada yaşayan azərbaycanlı icmasının nümayəndələri ilə görüşüb, Luvr Muzeyində olub, UNESCO-nun iqamətgahında təşkilatın baş direktoru Federiko Mayor ilə görüşüb. Heydər Əliyevə UNESCO-nun xatirə medalı təqdim edilib.

**1993-cü il 28 dekabr**

Heydər Əliyev Sumqayıta səfəri zamanı şəhərdəki Tarix Muzeyində olub, muzeyin qarşısında sakinlərlə görüşüb.

**1993-cü il 29 dekabr**

Prezident Heydər Əliyev Azərbaycanın görkəmli ictimai-siyasi xadimi Məhəmməd Əmin Rəsulzadənin (1884-1955) anadan olmasının 110 illik yubileyinin keçirilməsi haqqında fərman imzalayıb. Yubiley tədbirlərinin hazırlanması və keçirilməsi üçün komissiya yaradılıb.

**1994-cü il 4-5 yanvar**

Prezident Heydər Əliyev hərbi quruculuq məsələlərinə həsr olunmuş müşavirə keçirib, cəbhə bölgələrinə səfər edib.

**1994-cü il 9 yanvar**

Heydər Əliyev xaricdə yaşayan soydaşlarımızın bir qrupunu qəbul edib. Görüşdə Almaniyadakı Azərbaycan Mədəniyyət Cəmiyyətinin nümayəndələri – "Ana dili" qəzetinin naşiri və redaktoru Nurəddin Qərəvi, tanınmış qarmon ifaçısı Rəhman Əsədullahi və başqaları iştirak ediblər.

Heydər Əliyev dünyada yaşayan azərbaycanlıların bir araya gəlməsini çox arzulayırdı. Bu işdə xaricdə mədəniyyət xadimi kimi tanınan soydaşlarımızın rolunu xüsusi qeyd edirdi. Heydər Əliyevin görüşdə dediklərindən:

*"Dünyanın hansı ölkəsində, hansı yerində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı hiss etməlidir ki, onun Vətəni vardır...*

*Almaniyada yaşaya bilərsiniz, həm də çox firavan yaşaya bilərsiniz, Fransada, Amerikada da yaşaya bilərsiniz, varınız da, dövlətiniz də olar. Amma o ölkələr sizin Vətəniniz ola bilməz. Bunu təkcə azərbaycanlıya aid etmək olmaz. Hər bir millətin, hər bir insanın ana torpağı onun Vətənidir. Azərbaycanlıların da Vətəni Azərbaycandır...".*

**1994-cü il 27 yanvar**

Prezident Heydər Əliyev Ankaradakı Azərbaycan Mədəniyyət Cəmiyyətinin (Kültür Dərnəyi) baş katibi Əhməd Qaracanın rəhbərliyi ilə Bakıya gələn Türkiyədəki soydaşlarımızın bir qrupu ilə görüşüb.

**1994-cü il 7 fevral**

Heydər Əliyev Xalq artisti, kinorejissor Tofiq Tağızadəni 75 illik yubileyi münasibətilə təbrik edib. *"Milli kino sənətimizin zəngin xəzinəsinə daxil olmuş filmləriniz tamaşaçıların dərin rəğbətini qazanmışdır. Yüksək peşəkarlığınız, özünəməxsus dəst-xəttiniz Sizi Azərbaycan mədəniyyət və incəsənətinin ön sıralarına çıxarmışdır"*, – deyə təbrikdə vurğulanırdı.

**1994-cü il 8-11 fevral**

Prezident Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri çərçivəsində iki ölkə arasında bir sıra sahələrdə, o cümlədən mədəniyyət sahəsində əməkdaşlıq müqavilələri imzalanıb. Heydər Əliyev Ankaradakı Əsri məzarlığında Məhəmməd Əmin Rəsulzadənin məzarını ziyarət edib, qardaş ölkədə yaşayan soydaşlarımızla görüşüb, Türkiyə Böyük Millət Məclisində çıxış edib.

*"Əsrlər boyu nə qədər çətinliklər, nə qədər müharibələr, mücadilələr olmuşsa da, tarixi köklərimizin birliyi heç vaxt qırılmamışdır. Bu tellər daim bir-biri ilə bağlı olmuşdur. Ancaq elə illər olmuşdur ki, insanlar bir-birini görməyə, əlaqə saxlamağa həsrət qalmışlar. Lakin yenə də ümidlərini itirməmişlər. Xalqlarımızın qardaşlıq, dostluq əlaqələri, milli ənənələrin eyni köködən olmaları bu gün bizim üçün həm örnəkdir, həm də indimiz və gələcəyimiz üçün çox böyük təməldir, əsasdır...*

*Xalqımız ilk demokratik dövlət qurduğu dövrdə Türkiyə Azərbaycanla bir olmuş, bərabər olmuş, Azərbaycana çox böyük kömək və yardım etmişdir. Bunu Azərbaycan xalqı heç vaxt unutmayıb və unutmayacaqdır... Türk ordusunun Bakıya gəlməsi, Azərbaycanı daşnakların təcavüzündən xilas etməsi hər bir azərbaycanlının qəlbində yaşayır.*

*Biz uzun illər ərzində, 70 il bir-birimizdən ayrı düşmüşdük. Əvvəllər birliyimizə maneçilik törədən amillər olmuşdur. Lakin elm, mədəniyyət, ədəbiyyat adamlarımız bizim həmişə birgə olmağımızı təmin etmişlər... Ulu babalarımızın bizə verdikləri nəsihətlərə yaşamış olan xalqlarımızın mütəfəkkirləri milliyyətimizi, milli ənənələrimizi, mədəniyyətimizi, dilimizi, tariximizi unutmağa qoymayıblar...".*

**1994-cü il 7-11 mart**

Prezident Heydər Əliyev Çin Xalq Respublikasında rəsmi səfərdə olub. Səfər zamanı iki ölkə arasında elmi-texniki və mədəni əməkdaşlıq da daxil olmaqla müxtəlif sahələrdə sənədlər imzalanıb. Heydər Əliyev Böyük Çin səddində olub, Pekinin tarixi abidələrindən olan imperator sarayını – "Qudun" muzeyini ziyarət edib.

**1994-cü il 14 mart**

Heydər Əliyev Ramazan bayramı münasibətilə paytaxtın Şüvəlan qəsəbəsindəki Mirmöhsün ağanın qəbrini və Nardaran pirini ziyarət edib.

**1994-cü il 18 mart**

Heydər Əliyev Tofiq İsmayılov adına Uşaq-Gənclər Yaradıcılıq Sarayında Beynəlxalq Qırmızı Xaç Komitəsinin təşəbbüsü ilə təşkil olunmuş "Müharibə vaxtı insanpərvərlik" mövzusunda rəsm sərgisinin açılışında iştirak edib.

**Hazırladı: V.Orxan**

*(davamı var)*

# Kədəri təbəssümdə gizləmək kimi...

"Başıma çox faciələr gəlib. Teatr olmasaydı, halım nə olardı, bilmirəm. Sənət məni xilas elədi..."

Onu illərdir səhnədə görür və izləyirəm. Hələ Bakı Kamera Teatrının vaxtından. "Məkkəyə yol"da Məhəmmədhəsən əmi, "Xırs-quldurbasan"da Divanbəyi, "Skapyenin kələkləri"ndə Silvestr, "Qaraca qız"da Piri baba, "Müsyö Jordan və dərviş Məstəli şah"da Hətəmxan ağa, "Əlincə qalası"nda Əmir Teymur. Düzü, son tamaşasınadək heç vaxt onu baş rolda görməmişəm. Amma nə olsun ki. O, epizodda belə tamaşaçısına "mənə bax" deyə bilir.



Həmsöhbətimiz Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktyoru, Prezident mükafatçısı Kərəm Hadızadədir.

Söhbətə İsveç dramaturqu Bengt Alforsun "İllüziyaçılar" pyesi əsasında hazırlanan "35 ildən sonra" tamaşasından rolundan başlayırıq.

Birhissəli səhnə əsəri ömrünün qürub çağını yaşayan aktyorun həyatından bəhs edir. Artıq yaşa dolduğunu qəbul etməyən qoca aktyor ya durmadan monoloqlar söyləyib hələ də səhnəyə, tamaşaçıya lazım olduğunu isbata çalışır, ya da keçən ömrün kədərində çabalayır. Uzun illərdən sonra yeganə qızı ilə qarşılaşanda isə ata kimi həm onun varlığından həyəcanlanır, həm də xoşbəxt olur...

*– Aktyorlar adətən başqalarının həyatını oynayır. Aktyorun, özü də uğursuzluğa düçar aktyoru oynamaq necə bir hissdir?*

– Gənc rejissor Müşfiq Əliyevin bu işi məni xüsusilə cəlb etdi. Mənə elə gəlir ki, bu əsər bütün dünyadakı aktyorların həyatından bəhs edir. Aktyor istəyir ki, son nəfəsinədək işləsin, səhnədə olsun. Bu obraz ümumilikdə aktyorun həyat probleminin, daxili faciəsinin təcəssümüdür və istədim onu hiss etdiyim kimi ifadə edim. Oynayım yox, ifadə edim. Aktyor aktyorun obrazını daha yaxşı yarada bilir. Çünki o, bizim içimiz, daxili dünyamızdır.

*– Yaxşı, niyə aktyor bu qədər şikayətləndiyi halda belə həmişə səhnədə olmaq istəyir?*

– Məncə, aktyorlar Allah tərəfindən hansısa şövq verilmiş, seçilmiş adamlardır. Ona görə də aktyor balıq dəryada olan kimi səhnədə olmaq istəyir. Səhnə onun yaşamaq, nəfəs almaq yeridir. Qocalıb əldən düşsə də, istəyir həmişə səhnədə olsun. Yaşlı aktyorlar səhnənin bəzəyidir. Onlar səhnəni doldurur, dolğunlaşdırırlar.

*– Yəqin razılaşarsız ki, məsələ təkcə səhnəni doldurmaqdan ibarət olmamalıdır.*

– Əlbəttə. Mən səhnənin tamamlanmasından danışıram. Onlar, yəni yaşlılar səhnəyə çıxanda ora bir ağıryanalıq, təcrübədən irəli gələn inam verirlər.

*– Ya truppada (ştatda) olmaqla bağlı yaş senzindən, ya da ümumən peşənin insanı özünə bağlamasındanmı, bilmirəm, amma, məncə, aktyorlar yaşlanmaqdan çox qorxurlar. Bu sizdə də var?*

– Əslə, təki Allah ömür versin, yaşa dolaq. Mənim üçün səhnədə, sənətdə qocalmaq şərəfdir. Təki saç-saqqalım ağarsın, yaşlanım, amma səhnədə olum. Beynim işləsin, həmişə hərəkətdə olum, axtarıb arayım. Bu bizim peşədə ən vacib amillərdən biridir.

*– Tamaşaçı teatra gəlirsə, zatən yaxşı mənada aldanmağını qəbul edir və daim bu peşəkar aldanışın təsirinə düşməyə tələsir. Bu mənada səhnədə yaxşı yalançısınız?*

– (Gülür). Düzdür, biz aktyoruq, oynayırıq, hansısa bir obraza həyat veririk. O obrazın hisslərini ifadə edirik. Məncə, bu aldatmaq deyil. Sadəcə, tamaşaçı baxır, başqa bir insanın həyatını bizim təqdimatımızda görür. Bu mənada xoş tamaşaçını yaxşı inandıran, yaxud siz deyən kimi, aldadanın halına.

*– Siz aktyorluğa hansı daxili tələbat, zahiri ehtiyacdan gəldiniz?*

– Bax, onu bilmirəm. Deyim ki, kimisə görüb həvəsə düşməmişəm, kimisə özümə sənətdə bələdçi, nümunə seçib gəlməmişəm. Amma özümü anlayandan "artist olacam" deyirdim. Öz-özümə monoloqlar öyrənir və söyləyirdim. Kənddə, evimizdə uzun qış gecələrində bu əyləncəmdən məsud olurdum. Qaz yox, işıq da tez-tez sönürdü. Bax, o məqamlar mən odun sobasının üçbucaq dəliklərdən divara düşən işığın önünə keçər və monoloqlar deyər, özümü belə ifadə edərdim.

*– Deməli, o zamandan səhnənin qaranlıqdan işığa çağırış olduğunu dərk etmisiniz...*





– Bəli, mənə elə gəlir ki, anadan olandan ilk arzum məhz bu olub. Nəslimizdə, ətrafımda aktyor, sənətə bağlı kimsə olmayıb. İndi anlayıram ki, mən daxilən bu aclıq, bu ehtiyac ilə doğulmuşam.

*– Sənətə gəldiyiniz dönəm də çətin olub. 90-cı illərin gəncliyi və onların yaşam burulğanında aktyorluq, sənət arzuları...*

– Ali məqsədim bu idi. Əvvəl o vaxtkı Bakı Mədəni-Maarif Texnikumunda aktyorluq üzrə təhsil aldım. Əslində, bu da asan olmadı. Qəbul oldum, sonra hərbi xidmətə getdim, qayıdıb bitirdim və o vaxt yenicə qurulan Qazax Dövlət Dram Teatrında aktyor kimi fəaliyyətə başladım. Orada 4 ay çalışdım. 1989-cu ildə indiki Mədəniyyət və İncəsənət Universitetinə qəbul oldum, aktyorluq ixtisası üzrə əziz müəllimim, görkəmli rejissorumuz Cənnət Səlimovanın kursunda oxumağa başladım. Məncə, sənətdəki ən böyük xoşbəxtliyim məhz onun tələbəsi olmağımdır. Biz ikinci kursda oxuyanda Cənnət xanım Bakı Kamera Teatrını yaratdı və biz qrup olaraq orada çalışmağa başladıq. İndi də buradayam – Gənc Tamaşaçılar Teatrında...

*– Kamera Teatrı deməkşən, niyə o teatrın aktyorları seçilir?*

– Hər bir teatrın öz iş üslubu, prinsipi var. Ümumən hər bir teatrın aktyoru seçilməli, öz məktəbini, bacarıq və istedadını göstərməlidir. Bizim teatrın fərqi bir ailə olmağımızda idi. Hamımız tələbə yoldaşları, bir müəllimin tələbləri. Çox mehriban, səmimi idik. Yəqin buna görə də 20 ilə yaxın fəaliyyət göstərdik. Sözsüz ki, burada Cənnət xanımın, rəhmətlik rejissorumuz, Xalq artisti İrina Perlovanın rolu böyük idi.

*– Kərəm müəllim, mənə elə gəlir ki, aktyorun sonrakı sənət taleyində ilk rolunun böyük izi olur. Onu bir növ qarabaqara izləyir.*

– Haqlısınız, məncə. Peşəkar səhnədə ilk rolum Məmmədhəsən əmi idi. Bəlkə də o kişinin mülayimliyi, Allaha bağlılığı mistik bir qüvvə ilə aramızda rabitə yaradıb.

*– Bir obrazı geyimə bənzətsək, hər aktyor onu fərqli zamanlarda geyinir. Boyuna biçilsə də, biçilməsə də. Bu mənada eyni əsər və rolları həmkarlarınızın ifasında izləyəndə müqayisə edirsiniz?*

– Tam səmimi deyim ki, yeni rol təklif olunanda məndən əvvəl kimin və necə oynadığını nə analiz edir, nə də bu barədə müqayisə aparıram. Elə olarsa, rol ilə rabitə qura bilmərəm. Həmin ərəfələrdə ümumən heç nəyə baxmıram və özüm ilə baş-başa qalıram.

*– Bir ailə teatrı kimi yerdən böyük bir kollektivə – Gənc Tamaşaçılar Teatrına gəliş sizin üçün necə baş verdi? O inteqrasiyanı içinizdə necə həll elədiniz?*

– Bir dəfə bu teatrda belə bir söz dedilər: bunlar balaca teatrdan gəliblər. Amma bu, heç də belə deyildi. Biz balaca səhnədə və zalda oynasaq da, ildə 3-4 dəfə böyük festivallara gedir, böyük zallarda, çoxsaylı tamaşaçılar qarşısında oynayırdıq. Yəni böyük zallarda ifanın sirrini bilirdik.

*– Say və auditoriya mənasında soruşmuram. Mənə başqa məqam maraqlıdır. Ailə mühitindən, belə demək mümkünsə, ana qucağından həyata atılmaq kimi poetik...*

– Bu teatr da bizə yad deyildi. Hamısı sənət dostlarımız, tələbə yoldaşlarımız idi. Sadəcə, Bakı Kamera Teatrının bağlanması bizi çox üzdü. Bir müddət təsirsiz ötüşmədi. Amma mən burada da yad, qərib olmadım. Onu da deyim ki, Kamera Teatrından bu səhnəyə ilk mən gəlmişəm. "Pəri cadu" tamaşasında Rəhim kişi rolunda oynamışam. Amma Kamera Teatrının nisgili qaldı və qalacaq da.

*– Aktyorun peşə taleyindəki bir qəribəlik də onun rejissordan asılı olmasındadır.*

– Mən bir çox rejissorlarla işləmişəm. Mənim üçün rejissor teatrın əsas üslubunu, xəttini inkişaf etdirən, onun repertuarını zənginləşdirməyə xidmət edən əsas simadır.

*– Sözsüz ki, rejissordan bu mənada həm də ədalət hissi və prinsipiallıq tələb olunur. Mənə maraqlı gələn rejissorun sevimli aktyoru olmaq hissəsidir...*

– (Gülür). Məncə, bu da bütün teatrlarda var. Bəlkə elə bu məqam da ruh, inam bağlılığıdır. Mən hər şeydə, hətta ən çirkin təsvirdə belə gözəllik tapa bilirəm. Səmimi adamam, heç vaxt nə isə başqa niyyət gəzmirəm. Bir də ola bilər kənardan baxan üçün mən də Cənnət xanımın sevimli aktyoruyam. Burada nə var ki? Əslində, mən bunu belə görmək istəmirəm. Bütün rejissorlar üçün arzulanan, siz deyən kimi, sevimli olmaq istəyirəm. Ümumən konflikti, hansısa rola, tamaşaya görə özümü önə atmağı sevmirəm. Baxın, ömür nə qədər qısa, həyat nə qədər müvəqqətidir. Cari söz-söhbətlərdənsə, yaşamaq və işləmək lazımdır.

*– Film və serial biznesimiz də hələ o səviyyədə deyil ki, teatr aktyorları rahatlıqla çəkilsinlər, kütləvi tanınsınlar. Hərçənd ötən əsrin 60-cı illərindən kifayət qədər teatr aktyoru məhz rol aldıqları filmlər sayəsində tanındı və sevildi.*

– Düzdür, indi serial və filmlər çəkilir, proses gedir. Amma mən çox çəkilmirəm. Deyim ki, seçkin yanaşıram, yox. Sadəcə, az dəvət alıram və düşünürəm ki, heç də hər serialda çəkilməyəm.

*– Xoşbəxtlik anlayışınız nədir?*

– Şükür, səhnədəyik, oynayırıq, dostlar, yoldaşlar var. Qızım, nəvəm var. 58 yaşımadək hər şeyi yaşamışam, ən ağır itkiləri də. Amma yenə də şükür edirəm. Bu gün varamsa, nəfəs alıramsa, səhnədəyəmsə, deməli, xoşbəxt olmaq, hiss etmək üçün səbəblərim var.

*– Həyat və sənət obrazınız – hansında daha azadsınız?*

– Çətin sual oldu. Həyat Allah tərəfindən verilmiş sınaq zamanıdır, məncə. Dünyanı dərk edib, faciələri, itkiləri dada-dada yaşayırıq. Amma sənət sarıdan heç vaxt narazılıq etməmişəm və bu işi sevərək görmüşəm. Yaşadığım bu illərdə başıma çox faciələr gəldi. Onların hamısından xilasım məhz sənət, səhnə ilə oldu. Teatr olmasaydı, yaşadıqlarımla halım nə olardı, bilmirəm. Sənət məni yaşamın dibindən dartıb çıxardı, xilas elədi. Sağ olsun tamaşaçı, çalışdığım kollektivlər, tamaşalarında oynadığım rejissorlar, teatr rəhbərliyimiz. Hə, bu arada bu il mən də Prezident mükafatına layiq görülənlər sırasına qoşuldum. Ölkə başçımıza, əməyimizə diqqət göstərən hər kəsə təşəkkür edirəm. Mənim ən böyük mükafatım səhnədə olmağımdır. Amma bu kimi diqqət də, sözsüz ki, bizləri sevindirir.

**Söhbətləşdi:**
**Həmidə Nizamiqızı**

# Ulu öndər və Qarayev məktəbi

Azərbaycan Bəstəkarlar İttifaqında (ABİ) "Heydər Əliyev İli" çərçivəsində "Ulu öndər və Qarayev məktəbi" adlı tədbir keçirilib. Qara Qarayevin Ev-Muzeyi ilə birgə təşkil olunan tədbir Ümummilli liderin 100 və dahi bəstəkarın 105 illiyinə həsr edilib.



İttifaqın sədri Xalq artisti Firəngiz Əlizadə çıxış edərək Heydər Əliyevin Azərbaycan musiqi mədəniyyətinə göstərdiyi diqqət və qayğıdan, Qara Qarayevin bəstəkar və müəllim kimi Azərbaycan musiqisinə töhfələrindən söz açıb.

Mövzu ilə bağlı çıxış edən sənətşünaslıq üzrə fəlsəfə doktoru Səadət Təhmirazqızı Azərbaycan musiqi mədəniyyətində Qara Qarayevin yetirmələrinin mövqeyini xüsusi vurğulayıb.

Bəstəkarın qızı Züleyxa Qarayeva-Bağırova tədbirin iştirakçılarına təşəkkürünü bildirib.

Bədii hissədə Bakı şəhər Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbi və Sumqayıt şəhər Q.Qarayev adına 1 nömrəli Uşaq musiqi məktəbi şagirdlərinin ifasında görkəmli bəstəkarın əsərləri səsləndirilib. Həmçinin Q.Qarayevin yetirmələri – Xalq artistləri Firəngiz Əlizadə, Tofiq Bakıxanov və Azər Dadaşovun Heydər Əliyevə həsr olunan əsərləri ifa olunub.

# Çeçenistan Dövlət Pedaqoji Universitetində Azərbaycan mədəniyyəti mərkəzi

Azərbaycan Dillər Universitetinin (ADU) təşəbbüsü ilə dünyanın müxtəlif ali tədris ocaqlarında Azərbaycan mədəniyyəti mərkəzləri yaradılır. Növbəti belə mərkəz Rusiya Federasiyası Çeçenistan Respublikasının paytaxtı Qroznıda, Çeçenistan Dövlət Pedaqoji Universitetində təşkil edilib.



Bu münasibətlə keçirilən mərasimi Çeçenistan Dövlət Pedaqoji Universitetinin rektoru İsmayıl Bayxanov açıb.

ADU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Jalə Qəribova universitetin rektoru akademik Kamal Abdullanın salamlarını tədbir iştirakçılarına çatdırıb.

Çeçenistan Parlamentinin deputatı A.Naqaev, Çeçenistanın milli siyasət, xarici əlaqələr, mətbuat və informasiya məsələləri üzrə nazir müavini M.Başirov, Azərbaycan Yazıçılar Birliyinin beynəlxalq əlaqələr üzrə katibi Səlim Babullaoğlu, digər çıxış edənlər təşəbbüsün əhəmiyyətindən bəhs ediblər.

Qeyd olunub ki, xarici ölkə universitetlərdə Azərbaycan dili və mədəniyyəti mərkəzlərinin açılması ADU-nun rektoru akademik Kamal Abdullanın ideyasıdır. Sayca yeddinci mərkəz Çeçenistan Dövlət Pedaqoji Universitetində təşkil edilib.

# "Həyat partiturasında ustadın imzası"

Bakı Kitab Mərkəzində etnomusiqişünas Tahirə Kərimovanın dahi bəstəkar Fikrət Əmirov haqqında yazdığı "Həyat partiturasında ustadın imzası" kitabının (rus dilində) təqdimat mərasimi keçirilib.

Əməkdar incəsənət xadimi, musiqişünas Zümrüd Dadaşzadə kitab haqqında məlumat verib.

Nəşrin müəllifinin qızı, "Mədəniyyət" telekanalının direktoru Ülviyə Könül qeyd edib ki, kitab 39 il öncə dahi bəstəkar Fikrət Əmirovun iştirakı ilə yazılıb: "Bu neçə ildən sonra kitab işıq üzü görüb. Cəsarət edib deyə bilərəm ki, bu, ölməz bəstəkar barədə yazılan ən yaxşı kitablardan biridir".

AMEA-nın müxbir üzvü Rəna Məmmədova-Sarabskaya deyib: "Kitabı oxuyaraq çox zövq aldım, çünki o, çox mənalı dildə yazılıb və Fikrət Əmirovun şəxsiyyətini çox gözəl ifadə edir...".

Digər çıxış edənlər Fikrət Əmirovun zəngin yaradıcılıq irsindən danışıblar və kitabın Azərbaycan musiqişünaslığına töhfə olduğunu bildiriblər.

Fikrət Əmirovun oğlu, məşhur caz musiqiçisi Cəmil Əmirov kitabın müəllifinə və tədbir iştirakçılarına minnətdarlığını bildirib.

Sonda müəllif Tahirə Kərimova bəstəkar haqqında xatirələrini bölüşüb və qonaqlar üçün kitabları imzalayıb.

# Əməkdar mədəniyyət işçisi Fatimə Ağamirzəyeva vəfat edib

Əməkdar mədəniyyət işçisi, tanınmış xalçaçı Fatimə Ağamirzəyeva iyunun 25-də, 70 yaşında vəfat edib.



Fatimə Ayıbxan qızı Ağamirzəyeva 10 yanvar 1953-cü ildə anadan olub. Quba Kənd Təsərrüfatı Texnikumunda (indiki Quba Dövlət Sosial-İqtisadi Kolleci), Dağıstan Politexnik İnstitutunda (Mahaçqala şəhəri) təhsil alıb.

1974-cü ildə Quba Müəllimlər Evində biçmə-tikmə kursları açıb və 1988-ci ilədək bu kurslara rəhbərlik edib. Kursları aparmaq üçün tədris vəsaiti hazırlayıb. Daha sonra xalçaçılıq üzrə sahibkarlıq fəaliyyətinə başlayıb. Qubada "Aygün" xalça firmasını təsis edib, burada ərsəyə gələn xalçalar xalq sənətkarlığı ilə bağlı sərgi və festivallarda uğurla nümayiş olunub. Firmanın nəzdində modelyerlik və xalçaçılıq üzrə peşə kursları da fəaliyyət göstərib.

Ömrünün 40 ildən çoxunu xalça sənətinə həsr edən Fatimə Ağamirzəyeva "Xalça Dünyası Assosiasiyası" İctimai Birliyinə də rəhbərlik edib. 2017-ci ildə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə ölkəmizdə xalçaçılıq sənətinin inkişafında səmərəli fəaliyyətinə görə "Əməkdar mədəniyyət işçisi" adına layiq görülüb.

Allah rəhmət eləsin.

# Şəhid komandir haqqında film təqdim olunub

Abşeron rayon Mədəniyyət Mərkəzində Vətən müharibəsi şəhidi baş leytenant Muxtar Qasımlı haqqında sənədli filmin təqdimat mərasimi keçirilib.



Rejissoru və ssenari müəllifi Ruslan Mollayev olan filmdə Muxtar Qasımlının məktəb illəri, idmanda qazandığı uğurlar, 44 günlük Vətən müharibəsində döyüş yolu, göstərdiyi qəhrəmanlıq diqqətə çatdırılır.

Muxtar Qasımlı Vətən müharibəsi zamanı Füzuli rayonu ərazisində döyüşlərdə iştirak edib. 2020-ci il oktyabrın 2-də şəhidlik zirvəsinə ucalıb.

Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

# Bədii tədris müəssisələrinə işə qəbul üzrə test imtahanı keçiriləcək

Mədəniyyət Nazirliyinin 2023-cü il 4 aprel tarixli əmri ilə "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə direktorların, direktor müavinlərinin və müəllimlərin işə qəbulu Qaydaları" təsdiq edilib.

Qaydalara əsasən, məktəb və mərkəzlərə direktorların, direktor müavinlərinin və müəllimlərin işə qəbulu müsabiqə əsasında aparılır. Müsabiqə test imtahanından və müsahibədən ibarət olmaqla iki mərhələdə təşkil olunur.

Test imtahanı iyulun 16-da Dövlət İmtahan Mərkəzi (DİM) ilə birgə keçiriləcək. İmtahanda iştirak etmək istəyən namizədlərin qeydiyyatı DİM-in internet saytında (https://exidmet.dim.gov.az/elimt/MusiqiTest/elan) 6 iyul saat 17:00-dək aparılacaq.

# Canlı aləm və ətraf mühitlə bağlı izahlı terminlər lüğəti nəşr olunub

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun baş direktoru professor Nadir Məmmədli və Kənd Təsərrüfatı Nazirliyi Baytarlıq Elmi-Tədqiqat İnstitutunun laboratoriya direktoru dosent Şəlalə Zeynalovanın birgə tərtib etdikləri "Vahid sağlamlıq: insanlar, heyvanlar və ətraf mühit izahlı terminlər lüğəti" çapdan çıxıb. Mərkəzi Elmi Kitabxanada nəşrin təqdimatı keçirilib.

Dilçilik İnstitutundan bildirilib ki, lüğətin redaktoru akademik Qərib Məmmədovdur. Lüğətdə müxtəlif elm sahələrinə (baytarlıq, biologiya, zoologiya, molekulyar biologiya, təhlükəsizlik, biotexnologiya, mikrobiologiya, parazitalogiya, qida təhlükəsizliyi, heyvandarlıq, genetika və s.) aid 2000-ə yaxın termin, terminoloji birləşmələrin izahı və onların ingilis, rus dillərində qarşılığı verilib. Həmçinin ilk dəfə kitabda bir çox alınma terminlər Azərbaycan dilində transkripsiya, transliterasiya olunub.

# "Bütün əsərlərimdə həyata öz münasibətim var"

## Soltan Soltanlı: "Bəzən günlərlə düşünməyə vaxt sərf edirəm. Kətanı, rəngləri adi mövzular üçün israf etməməliyəm..."

Azərbaycan Rəssamlar İttifaqının üzvü, karikaturaçı, qrafik rəssam Soltan Soltanlı bənzərsiz əsərləri ilə sənətsevərlərə yaxşı tanışdır. O, müxtəlif ölkələrdə beynəlxalq müsabiqə, sərgi və festivallarda iştirak edib, əsərləri beynəlxalq kataloqlarda yer alıb, mükafatlara layiq görülüb. Əl işləri muzeylərdə və özəl kolleksiyalarda saxlanılır.

YARAT Müasir İncəsənət Məkanı tərəfindən təşkil edilən və bu ilin sentyabrınadək açıq olan "Çəhrayı-Qara" adlı qrup sərgisində Soltan Soltanlının da əsərləri yer alıb. Bu günlərdə rəssamla görüşüb həmsöhbət olduq, əsərlərinin ideya-estetik məziyyətləri, həmçinin özünün sənət haqqında düşüncələrini öyrəndik.

*– Neçə yaşınızdan rəssamlıqla məşğul olursunuz? Bu sahəyə marağı, həvəsi kim yaradıb?*

– 4-5 yaşımdan rəsm çəkdiyim yadıma gəlir. Hara gəldi çəkirdim. Onu da deyim ki, kəndimizdə rəsm çəkməyinə qibtə etdiyim çoxlu uşaq var idi. Sadəcə, mən bu sahədə ardıcıl oldum. Heykəltaraş da olmaq istəyirdim. Amma məni rəssamlıq daha çox cəlb etdi. Soyumuzda məndən öncə rəssam olmayıb.

*– Bildiyimə görə, atanız rəssam olmağınızı istəməyib.*

– Mən bu maneçiliyin nə olduğunu indi anlayıram. Qızım və oğlum da yaxşı rəsmlər çəkirlər. Mən də onlara bu sahəni seçmələrinə "mane" oluram. Daha doğrusu, deyirəm ki, rəsm çəkin, yadırğamayın, amma başqa sahədə təhsil alın. Rəsmlə bağlı gərək olanı mən öyrədəcəyəm. Başqa sahədən davamlı gəlirin olarsa, rəssamlıqla istədiyin kimi məşğul olacaqsan. Atam da bu baxımdan rəssam olmağıma qarşı idi. Yəni demək istəyirdi ki, özünə çörəkli bir iş tap. Məndəsə bu sənətə dərin bir yanğı, ehtiras vardı.

*– İxtisasca filoloqsunuz. Rəssamlıq və filologiya. Bunlar bir-birinə necə təsir edir?*

– Atam Azərbaycan dili və ədəbiyyat müəllimi idi. Filologiyaya maraq bizim qanımızdadır. Həm də filologiyanı seçməyim kənddən çıxmaq, böyük sənətin ardınca Bakıya gəlmək istəyimlə bağlı idi. Filologiya mənə Azərbaycan və dünya ədəbiyyatını öyrənməyimdə çox kömək elədi. Magistraturanı isə dilçilik üzrə oxudum, dilin enerjisini, fəlsəfəsini yaxından anladım. Ən başlıcası, filologiya təhsili mənə uzun illər mətbuatda jurnalist kimi çalışmağıma yardımçı oldu. Bundan başqa, ədəbiyyatda olan bir çox şeyi rəssamlığa gətirə bildim. Çoxları deyir ki, sizin rəsmlərdə poeziya var. Bu, doğrudur. Poeziyanı çox sevirəm. Bizim poeziyamız, özəlliklə klassik dövr çox fəlsəfidir. Amma rəssamlığa gəldikdə fəlsəfə yoxdur. Düzdür, bizim peşəkar rəssamlığın vur-tut bir əsrlik tarixi var. Ona görə də rəssamlıqdakı fikir qıtlığı məni təmin etmədi və fəlsəfi əsərlərimi yaratmağa başladım.

1993-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinə qəbul olunandan sonra başlıca işim sərgilərə getmək, rəssamlarla görüşmək oldu. Mən dərsdən sonra müxtəlif ünvanlardakı emalatxanalara gedir, tanınmış rəssam və heykəltaraşlarla təmasda olurdum. Bu görüşlər məndə rəssamlığa qarşısıalınmaz bir tutqu, ehtiras yaradırdı. Sonradan bu görüşləri yazılara, müsahibələrə çevirməyə başladım. İkinci kursda universiteti buraxıb rəssamlıq üzrə təhsil almaq istəyirdim. Elə bilirdim rəssamlıq təhsili və diplomu alan kimi sənətkar olacağam. Sonra qəti qərara gəldim ki, mən rəssamlıq təhsili almayacağam, amma rəssam olacağam. Bu işdə rəssamlıq təhsili almayan, amma dünya rəssamlığında iz qoyan dahilərin həyatı mənə kömək oldu.






*– Fərqli rəssam olmaq arzunuzu tam olaraq reallaşdıra bildinizmi?*

– Sonradan rəssamlarımızla görüşlərdən bir şey anladım: onlar texnikanı yaxşı bilirlər, yaxşı rəng vururlar, amma əbədiyaşar əsərlər, mövzular azdır. İnsanı, tamaşaçını dərindən, içdən silkələyən, onda min bir sual yaradan, düşüncəsini ardıcıl məşğul edən əsərlər gərəkdir. Ona görə də fərqli olmaq üçün yollar aradım. Nə ilə fərqli olmaq olardı? Mövzularla. Bunun üçün isə dərin düşünmək gərəkdir.

Açığı, hamı istəyir ki, fərqli olsun. Bunun üçün sənətdə cəfəngiyyata belə gedirlər. Mən düşüncə tərzimlə fərqli olmağı seçdim. Bütün əsərlərimdə həyata öz münasibətim var. Həyata münasibəti olmayan yaradıcılıq kimə gərəkdir? Həyata münasibət göstərmək – hadisələri özün və başqaları üçün izah eləməkdir. Şeir, musiqi, rəsm həyatın fərqli izah biçimləridir. Əgər rəsm özü həyatın izahıdırsa, onu yenidən sözlə izah eləməyə nə gərək var? Yəni rəsm elə olsun ki, baxan kimi anlaşılsın, onu izah etməyə gərək olmasın. Bunun üçün sənətkar dərin düşünməli, sadə çəkməlidir.

*– Bir fikrinizdə deyirsiniz ki, bütün rəssamların bir məktəbdən keçməsi, eyni müəllimlərdən dərs alması, eyni şeyləri öyrənməsi sonda onların bir-birinə bənzəməsinə gətirib çıxarır. Belə olan halda rəssamlıq təhsili almağa gərək varmı? İndi də bu qənaətdəsiniz?*

– Bu fikir mənim rəssamlıq təhsili almamaq haqqında qərarımla bağlıdır. Belə üsulla tələbə yalnız şəkil çəkməyi öyrənə bilər. Rəssamlıq məktəblərində tələbələrə şəkil çəkməyi öyrədirlər, yaradıcılığı yox. Yaradıcılıq insanın içindən gəlməlidir. Bəlkə də onun müəyyən yönlərini başa salmaq olar, ancaq bunu özün bacarmalısan. Necə ki, həyatı hər kəs özü yaşamalıdır. Başqası bizim yerimizə həyatı yaşaya bilməz. Çox çətin şeydir orijinal olmaq. Bir də dünyanın ən məşhur rəssamları məktəb görməyiblər, amma məktəb yaradıblar.

*– Fərqli üslubunuzla diqqət çəkirsiniz. Öz dəst-xəttini yaratmaq asan deyil. Bu istiqaməti gənc nəslə ötürmək fikriniz varmı?*

– Üslub yaratmaq çətindir. Yüzlərlə musiqiçi, rəssam, aktyor, yazıçı, şair var, amma onlardan yalnız hər sahədə bir neçəsinin öz üslubu var. Mənim yolum fəlsəfəyə, düşüncəyə bağlıdır, ona görə çətindir. Bəzən günlərlə düşünməyə vaxt sərf edirəm. Kətanı, rəngləri adi mövzular üçün israf etməməliyəm. Rəssamlıq yalnız təsvir sənəti deyil, o, ən başlıcası, düşüncə sənətidir. Başqa sözlə, rəssamlıq təkcə əl yox, həm də beyin işidir. Məncə, gənc nəslin kimisə təqlid etməsinə gərək yoxdur. Yeni gələnlər yeni şeylər yaratsalar, yaxşı olar. Çünki imkan həmişə var.

*– Əsərləriniz tamaşaçılarda böyük maraq doğurur. Rəsmləriniz satın alınırmı?*

– YARAT-ın 2019-cu ildə təşkil etdiyi sərgi mənim üçün yaddaqalan oldu. 45 gün davam etdi və əsərlərin hamısı satıldı. Sərgidə 34 əsər vardı. 11 əsəri ayrı-ayrı adamlar, 23 əsəri isə bir kolleksiyaçı aldı. Bu, sərgidə bütün əsərlərin satılması baxımından ölkəmizdə ilk idi.

*– Paytaxtımızda keçirilən rəsm sərgiləri sizi qane edirmi?*

– Elə sərgi təqdim etməlisən ki, orijinal olsun. Sərgi insanda dərin təəssürat yaratmalıdır. Tamaşaçı sərgidən təsirlənməli, sual dolu qafayla, genişlənmiş idrak üfüqləriylə salondan çıxmalıdır.

*– Çoxsaylı beynəlxalq sərgilərə qatılır, mükafatlar qazanırsınız...*

– 1997-ci ildən ölkəmizi beynəlxalq festival, yarışma və sərgilərdə təmsil edirəm. Beynəlxalq sərgi və yarışmaların öz tələbləri var. Bir sənətkar yalnız belə beynəlxalq yarışmalara qatılmaqla öz gücünü, dünyadakı yerini müəyyən edə bilər. Təvazökarlıqdan uzaq olsa da, əsərlərimi dünya səviyyəsinə uyğun yaratmıram, özüm bir səviyyə yaratmağa çalışıram. Mənim üslubum, mövzularım tamam yenidir. Dünya səviyyəsi yaratmaq üçün dünyanı heyrətləndirməlisən. Nəylə? Orijinal üslub, mövzu və yaradıcılıqla. Bunun üçün insan idrakının ən dərin qatlarına enmək tələb olunur. Bax, o zaman həqiqi, gerçəkliyin fövqünə yüksələn, zamanları aşan tablolar yaratmaq olur.

Mükafat məsələsinə gəlincə, bilirsiniz, indi bunlar da adiləşib. İki cür mükafat var: yarışmaya qatılaraq zəhmətlə qazanılmış mükafat, bir də təşkil edilmiş mükafat. Ölkəmizdə ikinci tip mükafatçılar gündən-günə çoxalmaqdadır.

*– Bəs ölkəmizdə necə, yaxşı tanınırsınızmı?*

– Sənət çevrəsi yaxşı tanıyır. Rəsmi dairələrdən isə 25 illik beynəlxalq fəaliyyətimlə bağlı quru "sağ ol" da eşitməmişəm. Yaxşı ki, dünyada yaradıcılığıma qiymət verənlər var. Xaricdə, ağla gəlməyən ölkələrdə Azərbaycanı təmsil edirəm, burada isə mükafatları başqalarına verirlər...

*– Bəzən tamaşaçılar da, yaradıcı adamlar və mütəxəssislər də sənətin səviyyəsindən narazılıq edirlər...*

– Bu, əslində, sənətin çöküməsidir. Hansı eybəcər sənətdə dərinlik tapa, ondan zövq, həzz ala bilərsiniz? Eybəcərlikdə dərinlik ola bilməz. Sənətin eybəcərləşməsi bəşərin tükənməyinin göstəricisidir. Fəlsəfə deyir ki, eybəcərlik yoxdur, gözəlliyin olmaması var. Beləliklə, sadəcə, gözəlliyin olmaması yetir ki, eybəcərlik ortaya çıxsın. Yəni bəşər daha gözəllik yarada bilmir. Necə ki, insan idrakı dəyərli fikirləri çətinliklə düşünüb tapır, cəfəngiyyat isə düşüncə tələb etmədən ortaya çıxır. Bəşəriyyətin texniki sahədə bütün tapıntıları, icadları insanı sevindirir, əlindən tutur. Texniki sahədə hansısa cəfəng icada rast gələrsinizmi? Yox. Ona görə ki, texniki icadlar dərin düşüncədən yaranır. Texniki sahə də insan ruhunun ifadəsidir. Sənət isə "ruhsallıq", "duyğusallıq" adıyla cəfəngiyyata gedib çıxdı. Ruhsallıq cəfəngiyyat ola bilməz. Cəfəngiyyat isə doğruçu ruhsallığın olmadığı yerdə cücərir. Sənət ən yüksək zəkayla ən yüksək duyğunu özündə birləşdirməlidir. O zaman eybəcərlik sənətdən yox olacaq...

*– Rəsm əsərləri təkcə sərgi salonlarını, muzeyləri deyil, evləri də bəzəsə, yaxşı olmazmı?*

– Adamlar evlərini ən yüksək səviyyədə təmir etdirirlər, otaqlarına ən bahalı əşyalar alırlar, amma ora bir rəsm əsəri asmaq yadlarına düşmür. Mənə elə gəlir ki, rəsm əsərinin olmadığı ev nə qədər yüksək səviyyədə təmir edilsə də, yoxsul görünəcək. Bir rəsm əsəri asmaq yetər ki, eviniz zəngin görünsün və siz ömür boyu ondan enerji alasınız...

**Lalə Azəri**

## Xatirə təqvimi 1-6 iyul

### Azərbaycan

**1 iyul 1893** – Tanınmış heykəltaraş, Azərbaycanın Əməkdar incəsənət xadimi, SSRİ Xalq rəssamı Pinxos (Pyotr) Vladimiroviç Sabsay (1893-1980) Odessada doğulub. 1926-cı ildən Bakıda yaşayıb. Ə.Əzimzadə adına Rəssamlıq Məktəbində dərs deyib. M.F.Axundzadənin, əmək qəhrəmanları və mədəniyyət xadimlərinin heykəl və büstlərinin müəllifidir.

**1 iyul 1925** – Ədəbiyyatşünas alim, professor Pənah İmran oğlu Xəlilov (1925-2019) Gürcüstanın Marneuli rayonunun Sadaxlı kəndində doğulub. "Azərbaycan sovet ədəbiyyatı tarixi" üçcildliyinin həmmüəllifidir. Rus dilindən ədəbi tərcümələr edib.

**1 iyul 1937** – Əməkdar mədəniyyət işçisi, aşıq İsfəndiyar Adil oğlu Rüstəmov (1937 – 9.2.2018) Gədəbəy rayonunun Gərgər kəndində doğulub. Gədəbəydə ilk aşıq ansamblını yaradıb, müxtəlif festivallarda respublikamızı təmsil edib.

**1 iyul 1942** – Əməkdar jurnalist, filologiya elmləri doktoru Nəsir Abbas oğlu Əhmədli (1.7.1942 – 7.6.2022) Tovuz rayonunun Alakol kəndində doğulub. BDU-nun Jurnalistika fakültəsinin professoru olub.

**1 iyul 2009** – Prezident İlham Əliyev "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğunun mühafizəsi və maddi-texniki təminatı, ərazidə arxeoloji tədqiqat işlərinin aparılması və "Atəşgah" tarixi muzey mərkəzinin yaradılması ilə bağlı sərəncam imzalayıb.

**2 iyul 1892** – Yazıçı, maarif və mədəniyyət xadimi Tağı Abbas oğlu Şahbazi (Simurğ; 1892-1937) Bakıda anadan olub. Respublika Xalq maarif komissarının müavini, Azərbaycan Dövlət Universitetinin rektoru işləyib. "Ağanın kənizi", "Aldanmış ümid", "Qayçı" və s. hekayələrin müəllifidir. Repressiya qurbanıdır.

**2 iyul 1953** – Əməkdar artist Tofiq Əşrəf oğlu Qarayev (1953 – 26.10.2013) Ağdamda doğulub. Ağdam Dövlət Dram Teatrının aktyoru olub.

**2 iyul 1953** – Əməkdar artist, müğənni Məhəbbət Allahverdi oğlu Kazımov (1953 – 27.1.2014) Laçın rayonunun Çorman kəndində doğulub. "Dan ulduzu" ansamblının solisti olub.

**3 iyul 1940** – Tanınmış pianoçu, Xalq artisti Zöhrab Əfrasiyab oğlu Adıgözəlzadə (1940 – 24.5.2012) Bakıda doğulub. Bakı Musiqi Akademiyasının professoru olub, Əskişəhər Universitetinin (Türkiyə) Dövlət Konservatoriyasında kafedra müdiri işləyib.

**3 iyul 2000** – Aşıq Xaspolad Gülablı (Xaspolad Salman oğlu Mirzalıyev; 1919-2000) vəfat edib.

**4 iyul 1928** – Tarix elmləri doktoru, professor, Əməkdar elm xadimi Kamran Nəbi oğlu Rəhimov (1928 – 4.7.2007) Naxçıvan MR Şərur rayonunun Qarabağlar kəndində doğulub. Maarif naziri (1983-1988), Ali Sovetin deputatı (1990-1995) olub.

**5 iyul 1851** – Publisist, alim və ictimai xadim İsasultan Nəcəfqulu oğlu Şahtaxtinski (1851 – 18.10.1894) İrəvanda anadan olub. "Tiflisski vestnik" qəzetində şöbə müdiri, "Kavkazski almanax"ın təsisçisi, naşiri və redaktoru olub.

**5 iyul 1928** – Əməkdar artist Əzizağa (Ağababa) Qasım oğlu Qasımov (1928 – 18.2.1985) Bakıda doğulub. Azərbaycan Dövlət Musiqili Komediya Teatrının aktyoru olub, filmlərə çəkilib.

**5 iyul 2003** – Prezident Heydər Əliyev Aşıq Şəmşirin 110 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**5 iyul 2018** – Prezident İlham Əliyev Sumqayıt Dövlət Dram Teatrının 50 illiyi haqqında sərəncam imzalayıb. Teatrın yubileyi 2018-ci il oktyabrın 30-da təntənəli şəkildə qeyd edildi.

**6 iyul 1918** – Yazıçı-tərcüməçi Şəfiqə Əli qızı Ağayeva (1918-1983) Ağdamda anadan olub. Azərbaycan uşaq ədəbiyyatının inkişafına töhfələr verib. Rus yazıçılarının uşaq və yeniyetmələr üçün hekayə və povestlərini dilimizə tərcümə edib.

**6 iyul 1947** – Əməkdar mədəniyyət işçisi, kino təşkilatçısı Xanlar Daşdəmir oğlu Cəfərov (1947-2016) anadan olub.

### Dünya

**1 iyul 1646** - Alman idealist filosofu, tarixçi, dilçi və riyaziyyatçı Qotfrid Vilhelm Leybnis (Gottfried Wilhelm Leibniz; 1646-1716) anadan olub.

**1 iyul 1804** – Fransız yazıçısı Jorj Sand (George Sand (əsl adı: Amandina Avrora Düpen – Amantine-Aurore-Lucile Dupin de Francueil); 1804-1876) anadan olub. Romanları: "Roz və Blanş", "İndiana", "Konsuelo" və s.

**1 iyul 1902** – Amerika rejissoru Vilyam Vayler (William Wyler; 1902-1981) anadan olub. "Roma tətili", "Həyatımın ən yaxşı illəri" və s. filmləri çəkib, üç dəfə "Oskar"a layiq görülüb.

**1 iyul 1909** – Gürcü aktyoru, SSRİ Xalq artisti Serqo Zakariadze (1909-1971) Bakıda doğulub. "Keto və Kote", "Əsgər atası" və s. filmlərdə çəkilib.

**2 iyul 1714** – Alman bəstəkarı Kristof Villibald Qlük (Christoph Willibald Ritter von Gluck; 1714-1787) anadan olub. "Orfey və Evridika", "Paris və Yelena", "İfigeniya Tavridada" və s. operaların müəllifidir.

**2 iyul 1877** – Alman yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1946) Herman Hesse (Hermann Hesse; 1877-1962) anadan olub. Əsərləri: "Təkər altında", "Çöl canavarı", "Şərq ölkəsinə ziyarət", "Muncuq oyunu" və s.

**2 iyul 1923** – Polyak şairi, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1996) Vislava Şimborska (Wislawa Szymborska; 1923 – 1.2.2012) anadan olub. "Son və əvvəl", "Yüz ..." və s. kitabların müəllifidir.

**2 iyul 1961** – Görkəmli Amerika yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1954) laureatı Ernest Heminquey (Ernest Miller Hemingway; 21.7.1899 – 1961) vəfat edib.

**3 iyul 1883** – Yəhudi əsilli çex-alman yazıçısı, filosof Frans Kafka (Franz Kafka; 1883 – 3.6.1924) Praqada doğulub. Əsərləri: "Bir xanımın xülasəsi", "İtaətkarla söhbət", "Çevrilmə", "Qəsr", "Kənd həkimi" və s.

**3 iyul 1908** – Fransız yazıçısı və ssenaristi Toma Narsejak (Thomas Narcejac, əsl adı Pierre Robert Ayraud; 1908-1998) anadan olub.

**4 iyul 1918** – Rus filosofu, kulturoloq, "Mədəniyyətlərin dialoqu" konsepsiyasının müəllifi Vladimir Bibler (1918-2000) anadan olub.

**4 iyul 1927** – Amerika dramaturqu və ssenaristi Nil Saymon (Marvin Neil Simon; 1927-2018) anadan olub. "Qəribə cütlük", "Parkda ayaqyalın" və s. komediyaları ilə məşhurlaşıb.

**4 iyul 1927** – Dünya şöhrətli italyan aktrisası Cina Lollobricida (Gina Lollobrigida; 1927 – 16.1.2023) anadan olub. Məşhur filmləri: "Fanfan-zanbaq", "Gecə gözəlləri", "Paris Notr-Dam kilsəsi" və s.

**5 iyul 1812** – İspan yazıçı-dramaturqu Antonio Qarsia Qutteres (Antonio Garcia Gutierrez; 1812-1884) anadan olub. Dramaturqun "Trubadur" pyesi əsasında italyan bəstəkarı Cüzeppe Verdi eyniadlı opera yazıb.

**5 iyul 1889** – Fransız yazıçısı, rəssam, teatr nəzəriyyəçisi Jan Kokto (Jean Maurice Eugene Clement Cocteau; 1889-1963) anadan olub. "Əllamə Toma", "Ədəbsiz uşaqlar" romanlarının, "Antiqona", "Orfey" pyeslərinin müəllifidir.

**5 iyul 1901** – SSRİ Xalq artisti, rejissor, aktyor, rəssam, yazıçı Sergey Obraztsov (1901-1992) anadan olub. Uzun illər Moskvada Mərkəzi Kukla Teatrına rəhbərlik edib.

**6 iyul 1859** – İsveç şairi və yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1916) Karl Qustav Verner fon Heydenstam (Carl Gustaf Verner von Heidenstam; 1859-1940) anadan olub. Əsərləri: "Endimion", "XII Karlın döyüşçüləri" və s.

**6 iyul 1887** – Yəhudi əsilli rus-fransız rəssamı Mark Zaxaroviç Şaqal (Xaskeleviç; 1887-1985) anadan olub. Rəngkarlıq və qrafika əsərləri ilə bədii avanqardın ən tanınmış simalarından biridir.

**Hazırladı: V.Orxan**

№49 (2018)
5 iyul 2023
www.medeniyyet.az

# Firəngiz Əlizadənin əsəri İngiltərədə festivalda səslənib



İngiltərənin Oldboro (Aldeburgh) şəhərində 9-25 iyun tarixlərində keçirilən ənənəvi musiqi festivalı (Aldeburgh Festival) çərçivəsində macar bəstəkarı Dyerd Ligetinin (György Ligeti; 1923-2006) 100 illiyi qeyd edilib. Əlamətdar yubiley münasibətilə festivalın təşkilat komitəsi məşhur bəstəkarlara yeni əsərlər sifariş etmişdi. Əsərlərin premyerası "The Red Hause"da "Ligeti Quartet"in ifasında səslənib.

Festivalda əsərləri ifa olunan Benoit Delberq (Fransa), Xiaoyoung Chen (Çin), Manfred Stahnke (Almaniya), Rolf Hind (İngiltərə) kimi bəstəkarlarla bir sırada Azərbaycanın görkəmli bəstəkarı, professor Firəngiz Əlizadə də yer alıb.

Firəngiz Əlizadənin D.Ligetinin yubileyinə həsr etdiyi "Fanfares for Ligeti" əsəri digər əsərlərlə birlikdə ingilis musiqiçiləri tərəfindən yüksək səviyyədə təqdim edilib. İfalar BBC radiosu tərəfindən birbaşa yayımlanıb. Festivalın bukletində bütün müəlliflər haqqında informasiyalar yer alıb. Burada Firəngiz Əlizadənin D.Ligetinin şəxsiyyəti və musiqisi haqqında düşüncələri də əksini tapıb.

Qeyd edək ki, əsası ingilis bəstəkarı Bendjamin Britten tərəfindən 1948-ci ildə Oldboro şəhərində (Suffolk qraflığı) qoyulan "Aldeburgh Festival of Music and Arts" sonralar ölkənin həyatında mühüm hadisəyə çevrilir. Bu il 74-cü dəfə təşkil olunan festivalın konsertlərində Con Keyc, Dmitri Şostakoviç, Pyer Bulez, Mstislav Rostropoviç kimi dünyaca məşhur musiqiçilərin çıxış ediblər.

# "Yad"ın yeni bölümü avqustda ekranlarda görünəcək




Britaniyalı kinorejissor və prodüser Ridli Skott yadplanetlilər dünyasında olan hadisələrdən bəhs edən məşhur "Yad" filminin yeni bölümünün təqdimatına hazırlaşır. Film "20th Century" kinostudiyasında (ABŞ) çəkilib.

"20th Century" filmin avqustun 16-da ekranlara çıxacağını elan edib. 86 yaşlı Ridli Skottun prodüseri olduğu "Yad" filminin yeni bölümünə rejissor Federiko Alvarez quruluş verib.

Ridli Skott ona dünya şöhrəti gətirən elmi-fantastik qorxu filminin ilk bölümünü 1979-cu ildə çəkib. Büdcəsi 11 milyon dollar olan "Yad" filmi doqquz dəfə çox (100 milyon dollar) gəlir gətirib.

Ondan sonra ayrı-ayrı rejissorlar bu silsilədən bir neçə film (o cümlədən C.Kameronun "Yadlar" (1986), D.Finçerin "Yad 3" (1992) və s.) çəksələr də, ilk filmin misilsiz uğurunu təkrarlaya bilməyiblər.

Filmin yeni bölümünün digərlərindən fərqlənəcəyi, izləyiciləri maraqlı hadisələrlə bol kadrlar gözlədiyi bildirilir. Süjet hələlik gizli saxlanılır, lakin ümumi konsepsiyanın dəyişməz qalacağı ehtimal edilir.

"20th Century" kinostudiyası bu layihənin mövzusu ətrafında serial da hazırlayır.

**V.Kamal**

# "Mərmər soyuğu" növbəti mükafata layiq görülüb




Rejissor Asif Rüstəmovun "Mərmər soyuğu" bədii filmi 25-29 iyun tarixlərində Yunanıstanda keçirilən 5-ci Beynəlxalq Kimolos Film Festivalında (The 5th Kimolos International Film Festival) "Qızıl ağac" mükafatına layiq görülüb.

Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Azərbaycanfilm" kinostudiyası, İctimai Televiziya, Bakı Media Mərkəzi və Fransanın "Arizona" kino şirkətinin birgə istehsal etdiyi filmin baş prodüseri Arzu Əliyeva, ssenari müəllifləri Asif Rüstəmov və Roelof Jan Minneboo, operatorları Oqtay Namazov və Adil Abbasov, rəssamı Rafiq Nəsirov, prodüserləri Fariz Əhmədov, Orman Əliyev və Guillaume de Seille, kreativ prodüseri İradə Bağırzadədir.

Uğursuz rəssam və sevgilisinin qarışıq münasibətlərindən bəhs edən filmdə əsas rollarda Elşən Əsgərov, Natəvan Abbaslı və Qurban İsmayılov çəkiliblər.

Qeyd edək ki, "Mərmər soyuğu" ötən il Tallinn "Qara Gecələr" Film Festivalında "Ən yaxşı aktyor", Almatı şəhərində keçirilən 16-cı Avrasiya Beynəlxalq Film Festivalında "Ən yaxşı rejissor" nominasiyalarında mükafatlara, bu il isə Fransanın Vesoul şəhərində 29-cu Asiya Filmləri Beynəlxalq Festivalında (Festival International des Cinémas d'Asie) jürinin əsas mükafatına layiq görülüb.

# Sürücüsüz avtomaşınlar ilk olaraq Dubayda yola çıxacaq

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Nazirlər Şurası iyulun 3-də özəl şirkətə ictimai yollarda avtonom nəqliyyat vasitələrini idarə etmək üçün ilk milli lisenziyanı təsdiqləyib. İlk olaraq Dubayda tətbiq olunacaq icazəni ixtisaslaşmış "WeRide" şirkəti alıb.

Bundan əlavə, hökumət elektrik avtomobilləri ilə bağlı siyasəti təsdiqləyib. Hökumət BƏƏ-də müxtəlif sahələrdə, xüsusilə atmosferə istixana qazları tullantılarının azaldılmasına yönəlmiş qabaqcıl texnologiyaları fəal şəkildə tətbiq edir və özəl biznesi buna həvəsləndirir. Cari ilin martında "United Parcel Service" yüklərin daşınması üçün elektriklə işləyən şaquli qalxan təyyarəni sınaqdan keçirmək üçün lisenziya alıb və Dubay hakimiyyəti şəhərdə 4 min pilotsuz taksi buraxmağı planlaşdırdıqlarını açıqlayıb. May ayında Əbu-Dabidə Yaxın Şərqdə ilk elektriklə işləyən zibil maşını istifadəyə verilib.




# Ekstremistlərin qəddar hərəkəti dünyada nifrət və düşmənçiliyi qızışdırır

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) İsveçin paytaxtı Stokholmda Qurani-Kərimin nüsxəsinin yandırılması ilə bağlı bəyanat verib.

Təşkilatın saytında yer alan bəyanatda müqəddəs Qurban bayramı günlərində bütün dünya müsəlmanlarının hisslərini təhqir edən bu barbarlıq aktı kəskin şəkildə pislənilib.

Bəyanatda deyilir: "ICESCO bir daha təsdiq edir ki, ekstremistlərin bu qəddar hərəkətinin təkrarlanması onlar tərəfindən sivilizasiyanın məğlubiyyətini, mədəni və dini müxtəlifliyi təşviq edən tolerantlığın rədd edilməsini ifadə edir, həmçinin düşmənçiliyin qızışmasına və nifrət ritorikasının canlanmasına səbəb olur".

ICESCO vurğulayır ki, millətlərin və xalqların həyatını tənzimləyən dəyər və prinsipləri lazımi səviyyədə qiymətləndirilməməsi beynəlxalq birliyin təhlükəsizliyinə və inkişafına xələl gətirə biləcək ən təhlükəli məhvedici silahdır. Təşkilat bu açıq həqiqəti nəzərə alaraq, beynəlxalq ictimaiyyəti bəşəriyyətin dünya miqyasında çəkdiyi münaqişələri kəskinləşdirməyə aparan bu dəhşətli aktlara ciddiyyətlə yanaşmağa çağırır. Təşkilat xəbərdarlıq edir ki, belə hallara etinasız yanaşan hər hansı hökumət bəşəriyyəti etik dəyərlər, mədəniyyət və xalqların adət-ənənələrinə hörmət yolundan uzaqlaşdırır.

Təşkilat, həmçinin sülh dəyərlərini qorumaq və maariflənidrmə mədəniyyətini bu cür mənfi tendensiyalarla mübarizə aparacaq şəkildə təşviq etmək üçün bütün sülhsevər qüvvələr ilə əməkdaşlığa hazır olduğunu bir daha təsdiqləyib.

***

Bu arada Roma Papası Fransisk də İsveçdə Quranın yandırılması aksiyasını pisləyib. Papanın sözlərinə görə, belə hərəkətlərə söz azadlığı ilə bəraət qazandırmaq olmaz.

"Söz azadlığı başqasına nifrət vasitəsi kimi, həmçinin qəbul olunmayan və qınanılan əməllərə haqq qazandırmaq üçün istifadə edilməməlidir", – deyə pontifik bildirib.

Qeyd edək ki, İsveç polisi iyunun 28-də Stokholmun ən iri məscidi qarşısında etiraz aksiyasına icazə verib. Aksiya zamanı iştirakçılardan biri – 37 yaşlı şəxs müqəddəs kitabın bir neçə səhifəsini yandırıb. Hadisə müsəlman aləmində, o cümlədən Türkiyədə sərt şəkildə pislənilib.

Türkiyə hələlik İsveçin NATO üzvlüyünü ratifikasiya etməyib. Ankaranın Stokholma qarşı iddialarından biri də orada İslam əleyhinə vüsət alan aksiyalardır.

# Türkdilli gənclərin görüş yeri: Kokand

Özbəkistanın Mədəniyyət və Turizm Nazirliyi, Gənclərlə İş Agentliyi və TÜRKSOY-un birgə təşkilatçılığı ilə iyul ayının 11-dən 15-dək Fərqanə vilayətinin Kokand şəhərində Türkdilli Gənclərin Beynəlxalq Festivalı keçiriləcək.




Özbəkistan Mədəniyyət və Turizm Nazirliyinin məlumatında bildirilir ki, festivala Qırğızıstan, Qazaxıstan, Türkmənistan, Türkiyə və Azərbaycandan tələbə və gənclər qatılacaqlar. Festival çərçivəsində bir sıra müsabiqələr, maraqlı layihələrin təqdimatı olacaq.

Bundan başqa, oxu günü, mədəni oyun tədbirləri, gənclər üçün sahibkarlıq məsələlərinə dair dəyirmi masalar, gənc sənətkarların əl işlərinin nümayişi nəzərdə tutulur. Festival günlərində iştirakçıların həyat tərzi və sənət uğurları ilə gənclərə nümunə ola biləcək teatr və kino xadimləri, eləcə də Özbəkistanda akkreditə olunmuş diplomatlarla görüşlər planlaşdırılır.

Artıq müəyyən edilib ki, Türkdilli Gənclərin Beynəlxalq Festivalı iki ildən bir iyul ayında keçirilsin.

**Gülcahan**




## Olaylar, faktlar (1-5 iyul)

### 454 il əvvəl...

**1 iyul 1569-cu ildə** Polşa və Litva knyazlıqları birləşərək Reç Pospolita dövlətini yaradıblar. Lyublin uniyası hələ 1385-ci ildən başlanan birləşmə prosesinin yekunu idi. Reç Pospolita XVIII əsrin sonunda Rusiya və Almaniya (Prussiya) tərəfindən bölüşdürüldü.

### 323 il əvvəl...

**3 iyul 1700-cü ildə** I Pyotrun Azov yürüşlərinin (1695-1696) nəticəsi ilə bağlı Rusiya ilə Osmanlı arasında sülh imzalanıb. İstanbulda imzalanan sazişə əsasən, Azov dənizi sahilindəki limanlarla birlikdə Rusiyanın nəzarətinə keçib. Osmanlı Dneprboyu ərazilər üzərində nəzarətini də itirib.

### 247 il əvvəl...



**4 iyul 1776-cı ildə** Amerika Birləşmiş Ştatlarının yaranması barədə "Müstəqillik Bəyannaməsi" qəbul olunub. Tomas Ceferson tərəfindən hazırlanan sənədə Britaniyanın Amerikadakı müstəmləkəsi olan 13 ştat imza atmışdı. Ştatların Filadelfiyada keçirilən II Kontinental Konqresində qəbul edilən "Müstəqillik Bəyannaməsi"ndə o vaxt Avropada hələ olmayan insan haqları və bərabərlik prinsipləri önə çəkilmişdi.

### 156 il əvvəl...

**1 iyul 1867-ci ildə** Kanada dövlətinin yarandığı elan edilib. O vaxtadək Kanada ingilislərin tam müstəmləkəsi idi. Britaniya Parlamentinin qəbul etdiyi qanuna əsasən, Kanada dominion (Britaniya Kralının general-qubernator təyin etdiyi, amma faktiki müstəqil) dövlət statusu aldı. O vaxt Kanadanın 4 vilayəti vardı və ərazisi indikinin üçdə-biri qədər idi.

### 105 il əvvəl...

**2 iyul 1918-ci ildə** Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri və daxili işlər naziri Fətəli xan Xoyski ölkədə ilk polis bölümünün yaradılması barədə əmr imzalayıb. Bununla Azərbaycan polis orqanlarının əsası qoyulub. Prezident Heydər Əliyevin 1998-ci il 24 may tarixli fərmanı ilə iyulun 2-si Azərbaycanda "Polis günü" kimi qeyd olunur.

### 103 il əvvəl...

**4 iyul 1920-ci ildə** Azərbaycan İnqilab Komitəsi (müvəqqəti hökumət) kino qurğularının milliləşdirilməsi haqqında dekret verib. Respublikadakı bütün kinematoqrafiya müəssisələri Xalq Maarif Komissarlığının yanında İncəsənət Şöbəsinin ixtiyarına verilib. Daha sonra İncəsənət Şöbəsi yanında Mərkəzi Kinoprokat İdarəsi yaradıldı.

### 77 il əvvəl...

**4 iyul 1946-cı ildə** Filippin müstəqilliyini elan edib. Üç əsrə yaxın İspaniyanın müstəmləkəsi olmuş Filippin müstəqilliyini 1898-ci ildə (ABŞ-İspaniya müharibəsindən sonra) bəyan etmişdi, lakin sonra Amerikanın müstəmləkəsinə çevrilmişdi. 1934-cü ildə ABŞ Filippinə muxtariyyət vermişdi.

### 61 il əvvəl...

**3 iyul 1962-ci ildə** Fransanın müstəmləkəsi olan Əlcəzair müstəqillik əldə edib. XVI əsrin ortalarından Osmanlının hökmranlığında olan Əlcəzair 1830-cu ildən Fransanın nəzarətinə keçmişdi. 1954-cü ildə Əlcəzairdə müstəmləkəçilik əleyhinə savaş başlamışdı.

### 47 il əvvəl...

**2 iyul 1976-cı ildə** Vyetnamın cənubunda ABŞ işğalçılığının başa çatması ilə ölkə birləşib. Şimaldakı Hanoy şəhəri paytaxt olmaqla Vyetnam Sosialist Respublikasının yarandığı elan edilib. Cənubda amerikapərəst rejimin mərkəzi olmuş Sayqon şəhəri Xoşimin (Vyetnam kommunistlərinin lideri) adlandırılıb.

### 29 il əvvəl...



**3 iyul 1994-cü ildə** erməni terrorizmi Azərbaycana qarşı növbəti cinayətini həyata keçirib. Bakı metrosunun "28 May" və "Gənclik" stansiyaları arasında qatarda törədilən partlayış nəticəsində 13 nəfər həlak olub, 42 nəfər yaralanıb.

### 21 il əvvəl...

**5 iyul 2002-ci ildə** Prezident Heydər Əliyevin fərmanı ilə Azərbaycan dövlətinin xaricdəki soydaşlarla əlaqələrini tənzimləyəcək qurum – Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılıb. Prezident İlham Əliyevin 19 noyabr 2008-ci il tarixli fərmanı ilə qurum Diaspora İş üzrə Dövlət Komitəsinə çevrilib.

**Hazırladı: V.Orxan**

Üzeyir Hacıbəylinin Ev-Muzeyinin kollektivi Cəfər Cabbarlının Ev-Muzeyinin direktoru Qəmər Bağırovaya qardaşı

**Altay Abbasovun**

vəfatı ilə bağlı dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

***

Azərbaycan Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadə və ittifaqın üzvləri Əməkdar incəsənət xadimi, bəstəkar Cahangir Zülfüqarova anası

**İnesa İsmayıl qızı Zülfüqarovanın**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

***

Bülbülün Memorial Muzeyinin kollektivi Cəfər Cabbarlının Ev-Muzeyinin direktoru Qəmər Bağırovaya qardaşı

**Altay Abbasovun**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev
**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə
**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya** № AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik
"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5053. **Sifariş:** 1709
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.
**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944
MƏDƏNİYYƏT QƏZETİ REDAKSİYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641